www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4-5 fevral 2017-ci il Şənbə № 25 (6639) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda orta məktəb şagirdi sinif yoldaşını bıçaqladı**

yazısı səh.14-də

**Gündəm**

**Bakı meri seçkisi niyə keçirilmir - 4 səbəb**



Abutalıbov əvəzedilməzdir, yoxsa yeni seçki başağrısı deməkdir?..

yazısı səh.4-də

# Üç paytaxt arasında əsəb savaşı

# MOSKVADAN MİNSK VƏ BAKIYA LAPŞİN HƏDƏSİ - KRİTİK GƏLİŞMƏ

Rusiya XİN sözçüsü "blogger Azərbaycana verilə bilməz" dedi; yəhudi cinayətkarın ekstradisiyası ətrafında qalmaqal böyüyür; Belarus Ali Məhkəməsinin 6 fevral yekun qərarı nə olacaq - gözlər həm də prezident Lukaşenkoda...



yazısı səh.8-də

**Qərbin Gürcüstanla bağlı böyük planı**

yazısı səh.9-da

**İŞİD-in tərkibində döyüşmüş azərbaycanlı "Muaz"a 15 il cəza verildi**

yazısı səh.2-də

**Vergilər Nazirliyi "artıq vergi ödəmələri" ilə bağlı izahat verdi**

yazısı səh.3-də

**"Maşallah Əhmədovu bağışlamağa hazıram" - zərərçəkən**

yazısı səh.4-də

**General Akif Çovdarov səhhətindən nigarandır: "Bu ekspertiza formaldır"**

yazısı səh.3-də

**Araz Əlizadənin Osmanlı və Nuru Paşa haqda həqarətlərinə sərt təpkilər gəldi**

yazısı səh.6-da

**Türkiyəli sənətçi Bakıda gecə klubunda döyüldü**

yazısı səh.12-də

**Özəlləşdirmə çekləri yenidən tədavülə qayıda bilər**

yazısı səh.10-da

**Kənd təsərrüfatının inkişafının "ASAN" yolu**

yazısı səh.13-də

**Dollar ucuzlaşır - müvəqqəti, yoxsa...**

yazısı səh.10-da

## Şimal və cənub qonşularımız işğalçının tərəfində - böyük sülhə əsas maneə

Ermənistan Rusiya və İrana güvənərək danışıqları sabotaj etməyə, Bakının Moskva və Tehranla arasını vurmağa çalışır; Azərbaycan üçün dost-müttəfiqlərin dəyəri artır

yazısı səh.11-də



*Siyavuş Novruzov:*

**"Bəzi adamlar yeni taktika seçiblər; prezidenti tərifləyək, yerdə qalanları tənqid edək"**

yazısı səh.5-də



*Hacı Qalib Salahzadə:*

**"Mövcud duruma görə hökumətin heç bir günahı yoxdur"**

yazısı səh.7-də



**Vitse-admiral Şahin Sultanov həbsə, yoxsa evə gedəcək?**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017



# Azərbaycanda 1 kiloqram çörəyin qiyməti 1 manat 20 qəpik oldu

**Azərbaycanda unun qiyməti artıb. Bu artım çörəyin qiymətinə təsir edib. Ölkədə unun qiyməti 8,2 faiz bahalaşıb. Un istehsal edən müəssisələr 50 kiloqramlıq 1 kisə unun qiymətini 24 manatdan 26 manat 15 qəpiyə qaldırıb. Unun bahalaşması zəncirvari reaksiya yaradıb. Ölkədə ən müxtəlif çörək zavodlarının istehsal etdiyi çörəyin qiyməti artıb və ya çəkisi azalıb. Əgər əvvəllər 50 qəpiyə alınan zavod çörəyinin çəkisi 700 qram idisə, hazırda çəki 600 qrama qədər azalıb. Bu, faktiki qiymət artımıdır. Hazırda "Nömrə 1" zavodunun istehsal etdiyi 400 qramlıq çörəyin qiyməti 50 qəpiyə qədər qaldırılıb. Bu hesabla 1 kiloqram çörəyin qiyməti 1 manat 20 qəpikdir.**

Məlumat üçün bildirək ki, Azərbaycanın ərzaq buğdasına illik tələbatı 3 milyon tondur, bir o qədər də yerli istehsal var. Ancaq yerli taxıl aşağı keyfiyyətli olduğundan Azərbaycan ildə 1,5 milyon ton taxıl idxal edir. Azərbaycana taxıl əsasən Qazaxıstan və Rusiyadan idxal olunur.

Ölkədə ən böyük un istehsalçısı deputat Əsabil Qasımovun ailəsinə məxsus olan "Karat holdinq"dir. Holdinq Azərbaycan un məhsulları bazarına demək olar ki, nəzarət edir. Deputatın ailə şirkətinin qiymətləri qaldırması manatın qiymətdən düşməsi fonunda ölkədə çörəyin qiymətinə, çəkisinə də birbaşa təsir edir.

Yada salaq ki, ötən ilin yanvarında da unun qiymətində artım baş vermişdi. Həmin vaxt Əsabil Qasımov bildirmişdi ki, manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan prezidentinin tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı 15 yanvar 2016-cı il tarixindən etibarən əlavə dəyər vergisindən (ƏDV) azad olunub ki, bu da çox vacib qərardır. "Ən azı bir il müddətinə çörəyin və unun bahalaşması sıfıra bərabərdir"-deyə Əsabil Qasımov vurğulamışdı.

Unun qiymətinin bahalaşması ilə bağlı "Karat holdinq"dən açıqlama vermədilər. Deputat Əsabil Qasımov israrlı zənglərimizi cavabsız qoyduğundan məsələyə onun münasibətini öyrənə bilmədik.

❑ E.MƏMMƏDƏLİYEV

# Ümumvətəndaş pasportlarının verilməsi qaydasında dəyişiklik edilib

**Əhaliyə ümumvətəndaş pasportlarının verilməsi işinin səmərəliyinin artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi və xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə Daxili İşlər Nazirliyi rəhbərliyinin tapşırığına əsasən, Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi tərəfindən bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, artıq vətəndaşlar ümumvətəndaş pasportu almaq üçün Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi ilə yanaşı, Nizami Rayon Polis İdarəsinə də müraciət edə bilərlər.

Qeydiyyatda olduqları yerdən asılı olmayaraq vətəndaşlar Nizami Rayon Polis İdarəsinə (8-ci km. qəsəbəsi, Ş.Mirzəyev küçəsi 71) müraciət edərək 10 iş günü müddətinə ümumvətəndaş pasportu ala bilərlər.

Sənədlər həftənin bütün günləri səhər saat 9.00-dan axşam saat 18.00-a qədər qəbul edilir.

Əlavə məlumat almaq istəyənlər (012) 590-64-31 şəhər və (050) 555-59-91 mobil nömrələrinə zəng vura bilərlər.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**

# Hacıbala Abutalıbova mer demək olmaz, çünki...

## Hər kəskin hava şəraitindən sonra yada düşən mer seçkiləri...



**Qarlı günlər Bakı şəhərində yaranan iflic durumla müşayiət olundu. Hər yağışlı-qarlı havada əziyyət çəkən şəhər sakinlərinin ağlına isə ilk növbədə şəhər meri Hacıbala Abutalıbov gəlir. Çünki şəhərin infrastrukturuna cavabdeh olan bu səlahiyyətli şəxs yaranan problemləri hər dəfə öz üslubunda həll etməyə çalışır. Bir dəfə zarafat, növbəti dəfə absurd təkliflərlə. Və insanları daha çox bu məqamda Bakı meriyasına seçkilər mövzusu düşündürür: niyə seçkilər keçirilmir? Əgər H.Abutalıbov seçkilər nəticəsində mer seçilməyibsə, onu "mer" adlandırmaq olarmı?**

Qeyd edək ki, bu gün Bakı Cənubi Qafqazda yeganə paytaxtdır ki, mer seçkisi keçirilməyib. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi dəfələrlə məsələni müzakirə edib, Azərbaycan hökumətinə Bakıda böyük şəhər bələdiyyəsinin yaradılması və mer seçkisinin keçirilməsi tövsiyə olunub. Amma hökumət bu tövsiyələrə müsbət yanaşmayıb. Bu gün digər Qafqaz paytaxtlarında, hətta İranda belə mer seçki ilə müəyyən edilir.

**"Azərbaycanın Bakıda mer seçkilərinin keçirilməsi ilə bağlı Avropa Şurası qarşısında öhdəliyi yoxdur". Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi (AŞYRHK) başçısını əvəz edən Ən Mikalef bir neçə il öncə Bakı meri vəzifəsinin seçkili olması ilə bağlı təklifini Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov belə şərh edib. Seyidovun sözlərinə görə, yerli idarəetməyə dair Avropa xartiyasının müddəasını AŞ üzv ölkələr öz istəklərilə yerinə yetirir.**

«Azərbaycanın mer seçkisi keçirməklə bağlı öhdəliyi yoxdur və Azərbaycan AŞ-nin tövsiyələrini milli maraqlarını nəzərə almaqla yerinə yetirir. Ümumiyyətlə, Azərbaycanın bu gün daha vacib problemləri var» - deyə Seyidov bildirib.

Ancaq ekspertlər deyirlər ki, iqtisadi əlverişlilik və Avropa Şurası qarşısında öhdəliklər baxımından Bakı merinin seçkiləri keçirilməlidir. Daha bir fikir isə odur ki, Azərbaycan üçün mer seçkiləri öz əhəmiyyətinə görə az qala prezident seçkilərinə bərabərdir. Çünki Bakının üç milyondan artıq əhalisi var və bu qədər insanın iştirak etdiyi siyasi proseslər hakimiyyətin maraqları baxımından arzuolunmazdır. Üstəlik, seçkilər Bakı meri kimi önəmli mövqenin nə vaxtsa, müxalif siyasi qüvvələrin əlinə keçməsinə də yol aça bilər. Bakı merinin müxalifətçi olması isə onun hakimiyyətin siyasi maraqlarıyla hesablaşmadan kütləvi etiraz aksiyalarına icazə verməsinə də problem yaratmaz. Bu isə hakimiyyət üçün kifayət qədər ciddi təhlükədir. Ona görə də hakimiyyət Bakıda və Azərbaycanın digər bölgələrində təyinatlı icra başçıları sistemini qoruyub saxlamaqda daha maraqlıdır. Çünki bu sistemdə özlərinin təyin etdikləri icra başçılarına istədiklərini etdirə bilirlər.

❑ Sevinc TELMANQIZI



# Vladimir Putin 16 generalı işdən çıxarıb

**Rusiya prezidenti Vladimir Putin FHN, DİN və İstintaq Komitəsinin 16 generalının vəzifələrindən xaric edilməsi haqqında fərman imzalayıb.**

Müvafiq sənəd hüquqi informasiyanın rəsmi internet portalında dərc edilib.

Fərmana əsasən, bütün generallar vəzifələrindən, onlardan ikisi isə həm də hərbi xidmətdən xaric edilib.

Kadr dəyişikliyinin səbəbləri barədə hələlik məlumat yoxdur.



# "Ledi Qaqaya 1 milyon dollar ödənilib"

**Bu il "Formula 1" azarkeşlərini əyləndirmək üçün Bakıya dünyaca məşhur ulduz gələcək. Bunu gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə deyib. Nazir xatırladıb ki, Bakıda keçirilən ilk Qran Pridə həm təşkilatçılıq, həm də əyləncə elementləri reklam məqsədilə yüksək səviyyədə təşkil olunmuşdu:**

"Bu il ola bilsin, əyləncə hissəsi ötənilki səviyyədə olmasın. Dünya səviyyəli ulduzla danışıqlar aparılır, ancaq hələ müqavilə imzalanmayıb". (azvision).

Xarici ulduzların qonorarına gəlincə, nazir qeyd edib ki, rəqəmlər heç kim üçün sirr deyil: "Bu sahədə olan mütəxəssislərə məlumdur ki, dünya ulduzları hansı məbləğ müqabilində çıxışlar edirlər. Kimi 30-50 min, kimi 300 min dollar qarşılığında çıxış edir.

Məsələn, I Avropa Oyunlarının açılışında çıxış edən Ledi Qaqaya 1 milyon dollar qonorar ödənmişdi. Büdcə həmişə mediaya açıqlanıb. Biz ənənəyə uyğun olaraq yarışın sonunda təşkilati işlərə xərclənən pulları açıqlayacağıq. Onu da qeyd edim ki, bu il yeni avadanlıqlar alınmayacaq, ötənilki hasardan istifadə olunacaq. Ümumilikdə daha az maliyyə xərclənəcək".

# Bələdiyyələrlə əlaqədar 12 cinayət işi başlanıb

**Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. APA-nın məlumatına görə, iclasın gündəliyinə Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin bələdiyyələrlə bağlı illik məruzəsi daxil edilib.**

Məruzədə qeyd olunub ki, 2016-cı ildə bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaşların müraciətləri daxil olub, eyni zamanda bələdiyyə aktlarının ekspertizası aparılıb. Ümumilikdə vətəndaşların Bələdiyyələrlə İş Mərkəzinə 2320 müraciəti daxil olub. Bu müraciətlərin 50 faizi torpaq məsələləri ilə bağlıdır. Torpaq məsələləri ilə bağlı müraciətlərin 538-i torpaq sahələrinin ayrılmaması, 145 müraciət torpaq sahələrinin sənədləşdirilməməsi, 557 müraciət isə torpaq mübahisələri ilə bağlıdır. Torpaq mübahisələri vətəndaşlarla bələdiyyələr və vətəndaşların öz aralarında olub. Ümumilikdə daxil olan müraciətlərin 126-sı təmin edilib. 27 müraciətlə əlaqədar inzibati araşdırma aparılıb. Bunlardan 9 fakt üzrə xırda nöqsanlar aşkarlanıb, bələdiyyələrə bu nöqsanların aradan qaldırılması üçün tövsiyələr verilib. 3 halda maliyyə pozuntusu aşkarlanıb və həmin vəsaitlərin bərpası təmin olunub. Müraciətlər üzrə 18 fakt üzrə çox ciddi pozuntu aşkarlanıb və prokurorluq orqanlarına müraciət edilib. Bələdiyyə aktlarının ekspertizası və müraciətlər də nəzərə alınmaqla, ümumilikdə il ərzində 58 fakt üzrə hüquq-mühafizə orqanlarına müraciət edilib, 12 cinayət işi açılıb. Bu işlərlə bağlı bir məhkəmə qərarı verilib.

Keçən il Qusar rayonunun Samur bələdiyyəsində 70 hektar torpağın 30 min manata qanunsuz satılması, torpaqların şübhəli sənədlərlə xüsusi mülkiyyətə verilməsi faktı aşkarlanıb. 2016-cı ildə 8359 hektar qanunsuz verilən bələdiyyə torpağı bələdiyyələrə qaytarılıb.

Məruzə Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Minsk Qrupu yenidən Bakıya gəlir

**ATƏT-in Minsk Qrupu yazda Azərbaycana və Ermənistana səfər edəcək.Modern.az xəbər verir ki, bu barədə fransalı həmsədr Stefan Viskonti Ermənistan KİV-nə müsahibəsi zamanı deyib. "Səfərin dəqiq tarixi yoxdur, amma düşünürəm ki, yazda tərəflərlə konsultasiya aparmaq üçün regiona səfər edəcəyik".**

Viskonti hazırkı şəraitdə Bakı ilə İrəvan arasında dialoqu bərpa etməyi və yeni hərbi toqquşmaların qarşısının alınmasını ən vacib məqsəd adlandırıb.

**Azərbaycan məhkəmələrində generalların, idarə və müəssisə rəhbərlərinin işləri üzrə məhkəmə prosesləri keçirilir. Mətbuatda "MTN işi", "Rabitə işi" adlanan proseslərdə hazırda həbsdə olan, 1 il əvvələ qədər böyük dövlət postları tutan, büdcə pullarına əlləri çatan vəzifəli şəxslərin az qala 100 milyonlarla ölçülən mal varlıqları haqda məlumatlar üzə çıxır, mülklərinin siyahısı sıralanır. Həmin siyahılara nəzər saldıqda oğurluqların miqyası heyrət doğurur.**



# Həbsdəki məmurların bank hesabları haqda şok bilgilər

## Azərbaycandan hər il azı 5-6 milyard pul çıxarılıb və xaricdəki banklara yatırılıb; oğurlanmış vəsaitin ölkəyə qaytarılması niyə problemdir?

Bəs hazırda arestant həyatı yaşayanların bank hesabları olmayıb? Olubsa, niyə həmin hesablar haqda məlumatlar ictimailəşmir? Məgər talanan büdcə pullarına yalnız hektarlarla torpaq sahəsi alınıb, mülk, imarətlər inşa olunub?

**Mərkəzi Bankda ümumi qanunvericilik şöbəsinin rəisi, "Bank of Baku" ASC-də Hüquq departamentinin direktoru, "Bank VTB (Azərbaycan)" ASC-də İdarə Heyəti sədrinin müavini olmuş hüquqşünas Əkrəm Həsənov deyir ki, bu adamların bank hesabları şübhəsiz ki, var:** "Rəsmi məlumatlarda onların bank hesablarına həbs qoyulması haqda məlumat yoxdursa, bu o demək deyil ki, tutulan məmurların bank hesablarının üzərinə həbs qoyulmayıb. Yəni hesablara həbs qoyulub. Sadəcə, bu haqda ona görə məlumat verilmir ki, belə məlumatların verilməsi "bank sirri" hesab edilir".

**Ə.Həsənov deyir ki, əgər məhkəmənin tutulan məmurlar barəsində ittihamedici hökmü olacaqsa, hökmdə bank hesablarında olan pulların da müsadirəsi haqda bənd olacaq:** "Belə məlumatların hazırda yayılması həbsə alınan məmurun təqsirsizlik prezumpsiyası hüququna ziddir".

**Ə.Həsənov deyir ki, əmlaklarla bağlı məlumatların ictimailəşməsi heç bir halda sirr hesab edilə bilməz:** "Bank hesabı haqda məlumatların yayılması qanunaziddir, bank sirrinin yayılmasıdır".

**"Həbsə alınan məmurun bank hesabında 3-5 milyon manat pulunun olması haqda bilginin ictimailəşməsi niyə bank sirrinin yayılması hesab olunur" sualına Ə.Həsənovun cavabı belə oldu:** "Ümumi prinsipdir ki, bankda olan vəsait haqda məlumat 3-cü şəxslərə verilməməlidir. Bankda olan vəsait haqda məlumatı bank və hesab sahibi bilir. Qanunla bankın üzərinə öhdəlik qoyulub ki, hesab haqda məlumatı yalnız sahibinə verə bilər. Bundan başqa, dövlət orqanlarının sorğusu əsasında da belə məlumatlar verilə bilər. Bu halda da dövlət orqanlarının işçilərinin üzərində bank sirrini yaymamaq haqda öhdəlik qoyulur. Yəqin ki, ittiham aktlarında belə məlumatlar var. Sübut olunsa ki, həmin hesablardakı pullar dövlət büdcəsinin talanması hesabına əldə olunub, əlbəttə ki, bu haqda məlumat ictimailəşəcək. Həmin pullar dövlətin nəfinə müsadirə olunacaq".

**Hazırda həbsdə olan məmurların xarici banklardakı hesablarına Azərbaycanın hüquq-mühafizə orqanları həbs qoyub sonradan müsadirəsinə nail ola bilərlərmi?**

**Ə.Həsənov:** "Azərbaycanın hüquq-mühafizə orqanları yalnız ölkə daxilində olan banklardakı hesablara həbs qoya bilirlər. Xarici banklardakı hesablara həbs qoyulması, prinsipcə, mümkündür. Amma Azərbaycanın məhkəmə-hüquq sistemi xaricdə yumşaq desək, güvənilən hesab olunmur. Tutaq ki, Azərbaycan məhkəməsi hazırda həbsdə olan məmurun Almaniya bankında olan hesabındakı vəsaitin müsadirə olunması haqda qərar verib. Almaniya bankı Azərbaycan məhkəməsinin qərarını sadəcə icra etməyəcək. Səbəb ölkədəki məhkəmə sisteminə etibar etməməlidir".

**Ə.Həsənov deyir ki, son 15 ildə Azərbaycana 141 milyard manat neft pulu gəlib. Rəsmi məlumata görə, bu pulun 35 milyard manata yaxın hissəsi əsas funksiyası neft gəlirlərini gələcək nəsillərə saxlamalı olan Neft Fondunda qalır. Qalan 106 milyard manat artıq yoxdur:** "Ölkədəki durum elədir ki, məmurlar neft pulları hesabına formalaşan büdcədən ən müxtəlif məqsədlər üçün ayrılan vəsaitlərin böyük hissəni mənimsəyiblər. Hazırda "MTN işi" "Rabitə işi"ndə üzə çıxan faktlar da söylədiklərimi təsdiqləyir. 1 manata olan malı 100 manata rəsmiləşdirib 99 manatı ciblərinə qoyublar. Aldıqları mal-mülkün bunca çox olmasının səbəbi budur. Bu adamların maaşları 2000 min manat olsaydı belə, bu qədər əmlak ala bilməzdilər. Həbs edilənlərin xaricdəki banklarda heç şübhəsiz ki, hesabları var. Sadəcə, Azərbaycan hazırkı məhkəmə-hüquq sistemi ilə ölkədən çıxarılan on milyardlarla vəsaiti geri qaytara bilməz".

**"Bunun üçün hansı addımlar atılmalıdır" sualına gəlincə, Ə.Hüseynov dedi ki, offşorlara yatırılan pulların geri alınması demək olar ki, mümkünsüzdür:** "Hesablamalarımıza görə, ötən 15 ildə Azərbaycandan hər il azı 5-6 milyard pul çıxarılıb və xaricdəki banklara yatırılıb. Böhrandan əvvəlki 2-3 il ərzində isə Azərbaycandan hər il azı 10 milyard pul çıxarılıb. Bu gün Azərbaycan banklarından kredit şəklində götürülən böyük məbləğlər də xarici banklardadır. Ona görə də ölkədən oğurlanan pulların qaytarılması üçün Sinqapur üsul-idarəsinə keçmək, məhkəmə sisteminin ədalət prinsiplərinə riayət etməsini təmin etmək gərəkdir. Ötən əsrin 60-cı illərinə qədər Sinqapurda kölgə iqtisadiyyatı, rüşvət və korrupsiya baxımından vəziyyət hazırda Azərbaycanda olandan da pis olub. Amma bu gün Sinqapur dünyanın ən şəffaf iqtisadiyyatına malikdir, ən ədalətli məhkəmə sisteminə malikdir. Amma ölkədə faktiki avtoritar rejim hökm sürür. Sinqapur dövlətinin məhkəmələrinin çıxardığı qərarları bu gün xarici dövlətlərin, Qərb dövlətlərinin əksəriyyətində tanıyırlar. Azərbaycanda isə bunlar yoxdur və deməli, ölkədən çıxarılan pulların geri qaytarılacağına da ümid olmamalıdır. Azərbaycan Sinqapur modelinə keçsə, illər sonra büdcədən oğurlanan milyardlarla vəsatin geri qaytarılması şansını qazana bilər".

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Panikaya gərək yoxdur, Amerikaya gedən yol bağlanmayıb" - ABŞ-da yaşayan azərbaycanlı vəkil

## İsmayıl Şahtaxtinski: "Tramp bütün dünyaya öz xarakterini göstərməyə cəhd edir"

**Vaşinqton yaxınlığında, Virciniya ştatında olan imiqrasiya məsələləri üzrə vəkil İsmayıl Şahtaxtinski "Yeni Müsavat"a geniş müsahibə verib. Müsahibə son günlər Tramp administrasiyasının miqrantlarla bağlı verdiyi qərarın dünyada yaratdığı əks-səda və onun hüquqi bazası barədədir.**

***- İsmayıl bəy, Donald Trampın miqrantlarla bağlı bu qərarı verəcəyi bəlli idi. Seçkiöncəsi kampaniyasında da bunun anonsunu vermişdi. Bəs nəyə görə bu cür kəskin reaksiyaya səbəb oldu?***

- Çünki kampaniya zamanı deyilənləri heç kəs ciddi qəbul etmirdi. Deyilənlərin real olmadığını Tramp da daxil olmaqla, hamı bilirdi. Amma Tramp, hər halda, özündən, razı xarakterinə uyğun olaraq, hazırda bütün dünyaya öz xarakterini göstərməyə cəhd edir. O istəmir ki, onun barəsində dediyini etməyən insan kimi danışsınlar. Jest kimi etmək istəyir bunu. Amma bu, qanuna, konstitusiyaya uyğun deyil ki, hansısa insanların ölkəyə girişi sırf hansısa millətin nümayəndəsi olduğuna görə qadağan olunsun.

***- Qanunauyğun olmasa da, bu, faktiki olaraq baş verdi. Nə qədər insan ölkəyə buraxılmadı, aeroportlarda qaldı. Bu zaman prezident sərəncamı önəmi çıxdı? Qanunu qabaqladımı?***

- Xeyr. Doğrudur, bura gələnlərin bəziləri saxlanıldı. Amma federal məhkəmə qərarın təsirini dondurdu. Ona görə də aeroportda saxlanılan adamlar buraxıldılar. İndi vəziyyət belədir ki, federal məhkəmələrin qərarı əsasında kimsə bura hansısa formada, əlində vizası və "Green Card" ilə gələ bilər. Əslində bu, çox məntiqə uyğun olmayan qərar idi ki, insanlar əllərində "Green Card" olsa da, Amerikaya gələ bilməzdilər. Sualınıza cavab olaraq deyirəm ki, prezident sərəncamı önə çıxmadı, yerinə yetirilə bilmədi. Amma bu yaranmış situasiya nə ilə bağlı oldu? Aviaşirkətlər həmin o siyahıdakı 7 ölkənin vətəndaşını təyyarəyə buraxmırdılar. Amma federal məhkəmənin qərarına görə kimsə sərhədə qədər gəlib çıxıbsa, heç kimin onu geri göndərməyə ixtiyarı yoxdur.



***- Misirdə İran rejissorunu buraxmadılar. Baxmayaraq ki, əlində vizası vardı. Bunun hüquqi yolu nədir? Amerikaya qədər gələnləri hesab edək ki, Amerika məhkəməsi buraxdırdı. Bəs digərlərinin probleminin həll yolu nədədir?***

- Digərlərinin bura girişini 90 gün ərzində saxlayıblar. Onların vizası batmayıb, yenə də gələ biləcəklər. Amerikanın təhlükəsizliyi üçün 90 gün müddətində saxlayıblar ki, yoxlamalar aparılsın.

***- Fikrinizcə, 90 günlük bu qadağa uzadıla bilərmi?***

- Qadağanın özü mənim və müxtəlif hüquqşünasların fikrincə, qeyri-qanunidir. Qanuni şəkildə bu qadağa uzadıla bilməz. Amma Tramp durub deyə bilərmi ki, mən bu müddəti uzadıram? Bəli, deyə bilər. Trampdan nə desən, gözləmək olar.

***- Trampın mühacirlərlə bağlı verdiyi son qərar onların hansı formada ölkədən çıxarılması ilə nəticələnə bilər?***

- Trampın qərarları odur ki, ölkədən statusu olmadan adamların çıxarılmasının prioritetini bir az genişləndirir. Nə mənada? Amerikada qanunsuz miqrantlar yaşayır. Onları bir anda ölkədən çıxarmaq olmaz. Deportasiya prosesi məhkəmələrdən keçməlidir. Deportasiyaya çağırılan adamın imkanı olmalıdır ki, öz sözünü desin. Ola bilər, Amerika vətəndaşıdır və onun Amerikada daimi yaşayış statusu var. Onu səhvən deportasiyaya çıxarıblar. Bu şəxsi təyyarəyə mindirib göndərmək konstitusiyaya ziddir. Tramp hakimiyyəti də bildi ki, 12 milyon adamı birdən göndərmək mümkün deyil. Amma həm Amerikada qeyri-qanuni yaşayanlar, həm statusu olmayan, həm də burda məhkumiyyəti olan miqrantların ölkədən çıxarılması üçün qanuni əsas yaratmaq lazım idi. Obama administrasiyası bunu etdi. Sonradan isə Tramp administrasiyası bunu davam etdi. Bir fərqlə ki, Obama administrasiyası ağır cinayətlər edən şəxsləri bu kateqoriyaya aid edirdi, Tramp administrasiyası isə hər cür cinayət edənləri nəzərdə tutur - ağır və yüngüllüyündən asılı olmayaraq. Problem odur ki, bu, məntiqli addım deyil. Güclü səslənir və o zaman da deyirlər ki, Tramp administrasiyası daha çox adamı deportasiya edəcək. Yox, daha çox adamı deportasiya etməyəcək. Reallıqda daha çox adamı deportasiya etmək üçün Amerikanın gücü məhduddur. Bir qədər gücü var ki, məsələn, ildə 100 min nəfəri tutub, federal miqrasiya saxlanma yerlərindən, sonra miqrasiya məhkəmələrindən keçirə bilərlər. Obama administrasiyası bura ancaq ağır cinayət törətmiş şəxsləri atmağı planlaşdırırdısa, Tramp administrasiyası hər cür kriminal işi olanları bura atır.

**"Daha çox adamı deportasiya etmək üçün Amerikanın gücü məhduddur"**

***- İndiki halda "Green Card" məsələsinin taleyi də sual doğurur. Şərtlər dəyişəcəkmi? Bu qərar bu məsələyə necə təsir göstərəcək?***

- Xeyr. Bu sərəncamla bağlı "Green Card" məsələsində hər hansı dəyişiklik yoxdur.

***- Bu "Green Card" şansından yararlanıb, udanlar arasında İrandan, İraqdan, eləcə də siyahıdakı ölkələrdən olanlar da var. Bu halda şərtlər necə olacaq?***

- Şamil olunacaq. Çünki bura girişi 90 gün saxlayıblar.

***- 120 gündə qaçqın qəbul olunması prosesi dayanıb. Bu, qanuna ziddir?***

- Beynəlxalq qanuna ziddir. Çünki Amerika müvafiq beynəlxalq konvensiya imzalayıb. O konvensiyanın şərtlərinə ziddir. Amerika neçə qaçqını qəbul etməsi ilə bağlı kvota verib.

***- Bəzi firmalar elan ediblər ki, mühacirləri iş və qalacaq yerlə təmin edəcəklər. Bu, qanunən mümkündürmü?***

- Bəli, qanunla mümkündür. Bura gəlib, işləyib, burda qalması mümkündür. İndiki halda söhbət ölkəyə daxil olmaqdan gedir, evinin və ya işinin olmasından yox.

***- Bu qadağa uzanar və daha geniş sferanı əhatə edərsə, Amerikada saxta nikahların sayının artması ehtimalı mümkündürmü?***

- Yox, onun bu məsələyə dəxli yoxdur. Saxta nikahlar hər zaman qeyri-qanuni olub və belə də qalacaq. Saxta nikah əsasında insanları deportasiya edirlər, həbs edirlər. Bu sahəyə heç bir aidiyyəti yoxdur. Mən istəyirəm ki, bu məsələdə panika olmasın. Düzdür, o 7 ölkədən olan insanlar üçün neqativ təsiri var ki, 90 gün ərzində bu ölkəyə daxil ola bilməyəcəklər. Qaçqınlar isə 120 gün ərzində daxil ola bilməyəcəklər.

***- Bu sərəncama görə prezidenti rəsmi şəxslər məhkəməyə verə bilərmi? Senatorlar və ya konqres hansısa formada müdaxilə edə bilərmi?***

- Əlbəttə. Konqres müdaxilə edə bilər.

***- Hansı formada? Hüquqi mexanizm necədir?***

- Konqres qanun qəbul edə bilər. Konqres hər şey edə bilər, prezidentin səlahiyyətlərini də ləğv edə bilər. Konqresin qüvvəsi böyükdür. Amma söhbət ondan gedir ki, konqres bunu etməz, çünki bu qurum respublikaçıların əlindədir. Mən internet vasitəsilə izləyirəm bu panikanı. Yazırlar ki, Amerikaya gedən yol bağlandı, daha bu ölkəyə getmək mümkün olmayacaq. Elə bir şey yoxdur. Sadəcə, qərarlar miqrasiya prosesi üçün neqativdir.

❑ **Sevinc TELMANQIZI**

## YAP-ın nə qədər pulu var?

**Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib.**

"Qafqazinfo" partiyanın saytına istinadən xəbər verir ki, iclasda YAP İdarə Heyətinin 2016-cı ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurasının tərkibi haqqında 2016-cı ilə dair illik statistik hesabat, partiyanın 2016-cı il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2017-ci ilin birinci yarımilliyinə dair iş planı müzakirə olunaraq qəbul edilib.

Baş nazirin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov deyib ki, 2016-cı ildə Azərbaycanın iqtisadi və sosial həyatında inkişaf davam etdirilib. Ötən ilin başlıca siyasi hadisəsi konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı keçirilən ümumxalq səsverməsi (referendum) olub.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının sıralarına hesabat dövrü ərzində 23 min nəfərdən çox yeni üzv qəbul edilmiş və beləliklə, partiya üzvlərinin sayı 688 min nəfəri keçib. Partiyaya daxil olanların sırasında gənclər və qadınların üstünlük təşkil edib.

İdarə heyətinin iclasında YAP-ın ötən ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilib. 2016-cı ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 7 736 859 manat olub. Bunun 6 596 979 manatını üzvlük haqları, 1 139 880 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil edib.

Yeni Azərbaycan Partiyasının cəmi xərcləri 7 582 108 manat təşkil edib. Hesabat ilinin sonuna partiyanın cari hesablarında və ehtiyat hesabında 8 939 197 manat qalıb.

## Müsavat Partiyası qarşısında etiraz aksiyası

**Fevralın 2-də Müsavat Partiyası qərargahının qarşısında bir qrup gənc etiraz aksiyası keçirib. Onlar Milli Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin iki gün əvvəl Novxanıda keçirilən tədbirdəki çıxışına etirazlarını bildiriblər. Polis aksiyaçıları Müsavat qərargahı yaxınlığından uzaqlaşdırıb. (APA)**

## İslam Partiyasının keçmiş sədrinin məhkəməsi başlayıb



**Fevralın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində dövlətə xəyanətdə ittiham olunan Nardaran sakini Natiq Kərimovun və Azərbaycan İslam Partiyasının sabiq sədr müavini İnqilab Əhədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Virtualaz.org saytının xəbərinə görə, prosesə hakim Əhməd Quliyev sədrlik edib. Qapalı keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.

Təqsirləndirilən şəxslər onlara elan olunmuş ittihamla özlərini təqsirli bilmədiklərini deyiblər.

Məhkəmə prosesi martın 2-də davam etdiriləcək.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi istintaq-əməliyyat tədbirlərinin nəticələrinə əsasən, Nardaran qəsəbə sakini Natiq Kərimovun xarici xüsusi xidmət orqanı əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək uzun müddət həmin orqan tərəfindən verilən tapşırıqları yerinə yetirməsi, dövlət təhlükəsizliyi zərərinə casusluq edərək dövlətə xəyanət etməsinə dair əsaslı şübhələr müəyyənləşib.

N.Kərimov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə təqsirləndirilən şəxs qismində saxlanılıb, məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib. Sonradan həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəzlənib.





# Parlament Milli Şuranın qərarını ləğv edərsə...

## Qabil Hüseynli: "Ermənilər Gümrünü paytaxt etmək istəyirdilər"

**Mayın 29-da əzəli torpağımız olan İrəvanın ermənilərə verilməsinin 99 ili tamam olacaq. Ermənistan paytaxtının Azərbaycana qaytarılması məsələsi bu il daha da gündəmə gəlib. Buna səbəb də razılaşmada tarixi ərazimizin düşmənə icarə əsasında nəzərdə tutulan müddətin bu il tamam olmasıdır.**

Artıq Azərbaycan parlamenti səviyyəsində məsələ gündəmə gətirilib. Qanunverici orqanın son iclasında **AMEA Tarix İnstitutunun direktoru, deputat Yaqub Mahmudov** çıxışında bununla bağlı bir sıra fikirlər səsləndirib: "Azərbaycan və İrəvan və ətraf ərazilərə varislik hüququmuzun olması ilə bağlı məsələni yaz sessiyasının gündəliyinə daxil etməlidir. Bütün sənədlər bizim əlimizdədir. Dövlət başçısı da o torpaqların Azərbaycana məxsus olması barədə prinsipial mövqeyini daim ifadə edir. Bugünlərdə hərbçilərimiz qarşısında dedi ki, İrəvanın ermənilərə verilməsi qərarı səhv olub".

**Y.Mahmudov bildirib ki, Erməni Milli Şurasının Türkiyə ilə apardığı danışıqların fransızca nüsxələri də əldə olunub və xaricdəki arxivlərdən xeyli sənədlər gətirilib:** "Ümumi ərazisi 9 min kv. km olan İrəvan və ətrafındakı ərazilər ermənilərə o şərtlə verilib ki, Şaumyanın başçılıq etdiyi daşnaq qrupları birincisi, azərbaycanlılara qarşı soyqırımı dayandırır; ikincisi, Azərbaycan ərazisində bütün soyqırımlara son qoyurlar; üçüncüsü, bir daha Azərbaycana ərazi iddiası irəli sürməyəcəkləri barədə öhdəlik götürürlər; dördüncüsü, oradakı azərbaycanlılarla ermənilər eyni hüquqlara malik olur, hətta orada bizim şeyxülislamımız təyin edilir. Ancaq bu razılaşma əldə olunandan bir gün sonra, 29 mayda Zəngəzura qarşı ərazi iddiaları, soyqırımlar başladı. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin, Milli Məclis də o vaxtkı Milli Şuranın hüquqi varisidir. Ermənilər bu razılaşmanı birtərəfli qaydada pozduğu üçün Azərbaycan məsələni yenidən Milli Məclisdə müzakirəyə çıxartmalı, ermənilər üzərinə götürdüyü şərtləri pozduğu üçün o torpaqlara varislik hüququmuzun olduğunu bəyan etməliyik".

Deputatın bu fikirləri İrəvanın necə ermənilərə verilməsi, hazırda bu ərazilərin geri qaytarılmasının mümkün olub-olmaması kimi məsələləri müzakirə obyektinə çevirib.



**Tarix elmləri doktoru, politoloq Qabil Hüseynli tarixi ərazimizin düşmənlərə verilməsinə səbəb olan amilləri bu cür sadaladı:** "1918-ci ildə elan olunan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini qorumağın mümkünsüz olduğu bir ərəfədə ortada olan ən ciddi problem ermənilərə paytaxt axtarılması idi. Həmin vaxt İrəvan şəhərinin 80%-i azərbaycanlılardan ibarət idi. Ermənilər yaxşı bilirdilər ki, orada paytaxt elan etmək boykotla qarşılanar. İlk vaxtlar indi Gümrü adlanan şəhəri paytaxt etmək istəyirdilər. Sonradan bu şəhərin paytaxta uyğun gəlmədiyini, Cənubi Qafqazdan onlara az ərazinin düşəcəyini bəhanə gətirərək, İrəvan üzərində israrla dayandılar. O zaman ingilis qoşunlarının bir hissəsi Tomsonun rəhbərliyi ilə Bakıda idi. Tomson İrəvanın ermənilərə verilməsində böyük rol oynadı. Türklərlə danışıb razılığa gəlib və bu xalqın da torpağının olmasını bildirdi. Fikirlərini hər üç Cənubi Qafqaz xalqının Rusiyadan qopması ilə əlaqələndirdi. Yaxın qonşuluq münasibətlərinin qoyulmasından da söz açırdı. Türklər də həmin vaxt ermənilərə paytaxt verilməsi xəttini müdafiə etdilər. Nəticədə İrəvan ermənilərə verildi. Azərbaycanın Milli Şurasında bu məsələ müzakirə olunub razılıq verilməli idi. Səsvermədə yalnız bir nəfər etiraz etdi, qalanları razılıq verdilər. O zaman Milli Şura sülh məsələsini ortaya atdı, çünki həmin vaxt ermənilər Zəngəzur və digər torpaqlarımızda çox fəal idilər. Sülh müqaviləsi təklifinə ermənilər əlavələr etdilər və müqavilə imzalandı. İrəvanın verilməsi ilə bağlı bəzi fikirlər var. Onlardan biri odur ki, 99 il müddətinə verilib. Digər bir fikir də müvəqqəti verilməsi ilə bağlıdır. Beləliklə, İrəvan daxil, ətraf 9 min kilometr ərazi ermənilərə keçdi. Gələcəkdə ermənilər guya indiki Gümrü şəhərini paytaxt elan etməli idilər. Müqavilənin şərtlərində ermənilərin ərazilərimizə olan iddialarına son qoyulması və digər müddəalar var idi. Amma ermənilər qəsbkar planlarından əl çəkmədilər. Dağlıq Qarabağ iddialarını da ortaya qoydular. Azərbaycanlılara qarşı qətliamlar həyata keçirirdilər. Ordumuz yetərincə deyildi, əvəzində ermənilər havadarları tərəfindən yardım alırdılar. Bütün bunlara baxmayaraq, Qarabağı qorumaq mümkün oldu. SSRİ qurulduqdan sonra İrəvanın icarə əsasında ermənilərə verilməsi məsələsi də unuduldu. Hətta Milli Şuranın Azərbaycanın əraziləri kimi göstərdiyi Zəngəzur da ermənilərə verildi. Təsəvvür edin ki, ermənilər müstəqilliklərini elan edərkən İrəvan da daxil, 10 min kvadrat kilometr əraziyə malik idilər. Amma ruslar Cənubi Qafqazı istila etdikdən sonra onların ərazisi 26 kvadrat kilometrə çatdı".

**Politoloq tarixçi alim Y.Mahmudovun fikirlərinə də toxundu:** "Hörmətli Yaqub müəllim bu məsələlər ətrafında uzun müddət araşdırmalar aparıb. Arxivlərdən sənədlər toplanıb və Tarix İnstitutunun əlindədir. Həmin sənədlər əsasında Milli Məclis itirilmiş torpaqlar məsələsini müzakirə edə bilər. Burada hüquqşünasların fəaliyyətinə də ciddi ehtiyac var. Bir sözlə, Yaqub müəllimin söylədiyi fikirlər tam həqiqəti əks etdirir. İlk vaxtlar ola bilər ki, dünyanın bəzi ölkələrində təəccüblə qarşılansın. Amma tarixi prosesləri sənədlər əsasında sübut etmək mümkündür. Eyni zamanda sübut etmək olar ki, Azərbaycan torpağında ilk dövlətini quran ermənilər indi də Azərbaycanın canı olan ərazilərə iddia edib, ikinci cırtdan dövlətlərini qurmaq istəyirlər. Tarixi ədalətin bərpası istiqamətində ermənilərin xislətini açıb ortaya bir daha qoymaq mümkündür. Dünya miqyasında ictimai rəyin aydınlaşdırılması istiqamətində bu amil mühüm əhəmiyyət kəsb edə bilər".

**❑ Cavanşir ABBASLI**

# Maliyyə hesabatı verməyən partiyalar təhlükədə

## “Siyasi partiyalar haqqında” Qanuna dəyişiklik edilməsi yenidən gündəmə gəlir; müxalifətdən “cibimiz boşdur” cavabı gəldi

**YAP-çı deputat Siyavuş Novruzov Milli Məclisin son iclasında “Siyasi partiyalar haqqında” Qanuna dəyişiklik edilməsi təklifini verib. O, təklifini belə əsaslandırıb ki, biz siyasi partiyaların MSK-ya hesabat verməsini nəzərdə tutan qanun qəbul etmişik, amma buna əməl olunmur. Ona görə də əgər kimsə öz gəlirləri barədə hesabat vermirsə, onunla bağlı tədbir görülməlidir: “Baxmayaraq ki, bir sıra partiyaların kifayət qədər cangüdənləri, avtomobilləri var, təbii ki, bunlar hava ilə dolanmırlar. ”Siyasi partiyalar haqqında" Qanuna dəyişiklik edildi ki, siyasi partiyalar maliyyə hesabatlarını Mərkəzi Seçki Komissiyasına təqdim etsinlər. Lakin bir sıra siyasi partiyalar Mərkəzi Seçki Komissiyasına hesabat vermirlər. Həmin partiyaların kifayət qədər cangüdənləri, işçiləri var, ancaq hesabat vermirlər. Qanunvericilikdə elə normalar tətbiq etməliyik ki, bunun qarşısını alaq".**




Qeyd edək ki, ölkədə dövlət qeydiyyatından keçən 55 partiya var. Onların 11-i parlamentdə təmsil olunur. Qalanlarının təxminən 15-ə yaxınının müəyyən fəaliyyəti hiss olunur. Təxminən yarısının isə heç bir fəaliyyəti yoxdur. Qanunda iki il fəaliyyəti olmayan partiyanın qeydiyyatının ləğvi tələbi də əksini tapır.

Fəaliyyəti olan müxalif partiyaların bəziləri maliyyə hesabatı məsələsinin gündəmə gətirilməsinə münasibət bildiriblər.

ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, nə sürücüsü, nə mühafizəçisi var, nə də partiyada maaşla işləyən işçilər var: «Partiyamızın rəhbər orqanında təxminən 15 nəfərə yaxın adam var ki, onlar da ictimai əsaslarla fəaliyyət göstərirlər. Siyavuş Novruzov deyir ki, partiyalarda bu insanlar necə dolanırlar? Azərbaycanda əhalinin ən azı 60 faizi işsizdir. Mən indi Siyavuş Novruzova sual verirəm ki, bu insanlar necə dolanır? Vətəndaşları işsizliyə məhkum eləyib küncə sıxışdırırsınız və sonra da deyirsiniz ki, bunlar hava ilə dolanırlar? 60-70 faiz işsiz olan insan necə dolanırsa, müxalifət partiyalarındakı insanlar da elə dolanır. O ki qaldı partiyaların MSK-ya maliyyə hesabatı verməsi tələbinə, MSK-nın partiyalardan maliyyə hesabatı alması qanunlara, konstitusiyaya ziddir. Yalnız xüsusi hallarda Maliyyə Nazirliyi partiyanın maliyyələşdirilməsi ilə bağlı hesabatını tələb edə bilər. Digər tərəfdən isə dövlət büdcəsindən maliyyələşdirilməyən partiyalardan hansı məntiqlə və haqla maliyyə hesabatı tələb edilir?! Adama deyərlər ki, sən mənə maliyyə verirsən ki, hesabatını da tələb edəsən? Gündə qanuna kefləri istədiyi bir dəyişiklik edəcəklər, müxalifət partiyaları da onların dediyi ilə oturub-duracaq?! Siyavuş Novruzovun indi partiyaların maliyyə hesabatı məsələsini ortaya atması da, bir neçə gündür müxalifətə qarşı telekanallarda hücum başlanması da, fevralın 2-də Müsavat Partiyasının qərargahı qarşısında bir dəstə adamın piketinin təşkil olunması da ölkədə gündəmi dəyişmək üçündür. Ölkədə iqtisadi, sosial durum ağırlaşdıqca istəyirlər gündəmi bu metodlarla dəyişsinlər. Lap tutaq ki, maliyyə hesabatını bəhanə edib partiyaların fəaliyyətini qadağan elədilər, guya bundan sonra Azərbaycanda müxalifət olmayacaq!? Qadağan edəndə aşkar fəaliyyət gizli fəaliyyətə keçə bilər ki, bu daha pis olar. Birdəfəlik bilmək lazımdır ki, partiyaların qapadılması ölkədə yaranmış vəziyyətdən çıxış yolu deyil".

**VİP sədri Əli Əliyev bildirdi ki, partiyaların yada düşməsi siyasi narahatlığın təzahürüdür. Hakimiyyət siyasi institutları maksimum dərəcədə nəzarətdə tutmağa çalışır:** “Deyilənlərin bizə heç bir aidiyyəti yoxdur. Biz Allahın hifzində olanlardanıq, mühafizədən istifadə etmirik, sürücümüz də yoxdur. Hesabatlarımızı da vaxtında təqdim edirik. Həm MSK-ya, həm də vergi orqanlarına mükəlləf olduğumuzu icra edirik. Təbii ki, hakimiyyət siyasi müxalifətin sıxışdırılmasını davam etdirəcək. Siyavuş Novruzovun bəyanatını da anons saymaq olar”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə bildirdi ki, KXCP illik maliyyə hesabatı haqda MSK-ya məlumat təqdim edir:** “Partiyamızda nə sədr, nə də müavinlər cangüdənlərdən istifadə etmirlər. Hər hansı maaşlı işçilər saxlamaq yox dərəcəsindədir. İndiki vəziyyətdə KXCP üzvləri çətin həyat tərzi yaşada da, ölkədə demokratiyanın qələbəsi uğrunda mübarizədən yorulmurlar. Ölkədə siyasi partiyaların fəaliyyətlərini nəinki məhdudlaşdırmaq və yaxud əhəmiyyətsiz hesabat tələbi etmək, partiyalara şərait yaradılmalı, onları seçkilərdə əzməməli, üzvlərini tutmamalı, zəhmətlə pul qazanmalarına mane olmamalı və qərargahla təmin etməlidirlər”.

**AMİP katibi Elşən Mustafayev isə dedi ki, AMİP dövlətdən maliyyələşmir. Buna baxmayaraq, partiyanın saxlanılması üçün maliyyə vacibdir. Odur ki, AMİP hər il gəlirləri, onların mənbələri və xərcləri haqda hesabatlarını MSK-ya verir və audit yoxlamasından da keçir:** “Digər tərəfdən, bəzi partiyalarda partiya üzvləri gün ərzində müxtəlif işlərlə məşğul olur, partiyaya öz köməkliklərini göstərirlər. Əksər hallarda bu partiya üzvlərinin təmənnasız köməyi şəklində olunur. İndi normativ akt qəbul etməklə onlara bunu qadağan edəcəklər? Ya da onlara deyəcəklər ki, partiyaya təmənnasız kömək etmək olmaz, bunu yalnız ödənişli etməlisiniz? Bunu qadağan edə bilməzlər. Belə addımlar çıxış yolu deyil. Çıxış yolu ölkədə həqiqi fəaliyyət göstərən siyasi partiyaları müəyyən etməyin kriteriyalarını hazırlamaqdır. Bundan sonra həmin partiyalar hakimiyyətin onlara olan münasibətindən asılı olmayaraq dövlət maliyyələşməsindən istifadə etməlidirlər. Həmçinin ölkə vətəndaşlarının, xüsusilə iş adamlarının siyasi partiyalara maliyyə yardımı etdiyinə görə hər hansı problem yaşamamasını təmin etmək lazımdır. O vaxta qədər ki, bunlar olmayıb, belə normativ aktların qəbul olunması siyasi partiyalara təzyiq kimi qiymətləndiriləcək”.

❑ E.SEYİDAĞA

# Rusiyanın “Şeyx Nəsrullah”ı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Trampın Ağ Evə gəlişi Rusiya prezidenti Putini ruhlandırıb. Kreml başçısı özünün köhnə “Yaxın xaric” planları üçün artıq yeni stimul qazanmış kimi görünür: Tramp and içər-içməz Ukraynanın şərqində vəziyyətin təzədən qarışması, Donbas separatçılarının yeni ərazilər ələ keçirmək üçün hərəkətə keçməsi, hər halda, təsadüfə heç bənzəmir.**

Deyəsən, Putin ona loyallığını gizlətməyən Ağ Evin yeni sahibinin “əsas hədəfimiz xaric yox, Amerika olacaq!” tezisindən dərhal yararlanmağa qərar verib. Niyə də olmasın ki. Belə fürsət 2000-ci ildən bu yana *(cənab KQB polkovniki Putin hakimiyyət olimpinə qalxandan sonra)* ilk dəfə ələ düşür. Şansı dəyərləndirmək pis olmaz. Siftəni də Trampın daha az diqqət ayırmağı vəd etdiyi Ukraynadan başlamaq, daha doğrusu, yarımçıq planı Ukraynada bitirmək olar.

Bu, təbii ki, Azərbaycana da mesajdır ki, Kremlin Avrasiya layihələrinə Bakı bundan sonra daha həssas yanaşsın və qərarını uzatmasın. Təhlükə bundadır. Çünki Avrasiya layihələri arxasında məhz SSRİ-ni bərpa etmək məramının dayandığı sirr deyil - Rusiya lideri bunu açıq söyləməsə də.

Əvəzində “Kremlin danışan dil”lərindən olan Vladimir Jirinovski illərdir bunu ucadan bəyan edir. Hətta baş “liberal demokrat” ara-sıra ipə-sapa yatmayan keçmiş sovet ölkələrini hədələyir də. Onun Qarabağa dair universal həll təklifi isə çoxdan bəllidir: Jirinovskiyə görə, Azərbaycan və Ermənistan yalnız vahid dövlət tərkibində olarsa, konflikt çözülə bilər. Yəni, əks halda iki xalq hələ uzun müddət, lap dəqiqi, Rusiya çökənədək bir-birini qırmalıdır.

Dünən Jirinovski bir az da qabağa gedərək bildirib ki, prezident seçkilərində qələbə qazanacağı halda Ukraynanı məhv edəcək. “Rossiya 1" telekanalının birbaşa efirində çıxış edərkən o, söz verib ki, Kremlə girişdən cəmi üç gün sonra bütün Ukrayna hökumətini həbs edəcək. ”Heç bir Ukrayna olmayacaq! Hamı həbs ediləcək! Və yalnız hərbi yolla! Prezident seçiləcəyim halda bunu edəcəyəm!", - deyə Jiriniovski BMT üzvü, suveren Ukrayna dövlətini hədələyib.

Ötən ay isə Rusiyanın baş kommunisti Gennadi Züqanov Jirikin SSRİ ilə bağlı bayatısını təkrarlamışdı. Demişdi ki, SSRİ bərpa edilməlidir. “Biz SSRİ-nin dağılmasını qəbul etmirik. Hesab edirik ki, xalqın böyük çoxluğunun SSRİ-nin saxlanılmasına səs verdiyi referendum müqəddəs sənəddir (?!-Z.S.). Ümid edirik ki, xalqın qanuni istəyi əvvəl-axır bərpa ediləcək”. Züqanovun sözləridir.

Hərgah, bu iki şəxsin bir-birini görən gözləri yoxdur. Jirinovski hətta Kommunist Partiyasının bağlanması və ləğvinin tərəfdarıdır. Amma baxın, Rusiyanın baş kommunisti də, baş “liberal-demokratı” da, prezident Putinin timsalında ən böyük avtoritarı da çəkici eyni zindana vurur, faktiki eyni - imperiya təfəkkürünün daşıyıcısıdırlar, hamısı eyni cür düşünür - SSRİ bərpa edilməlidir, vəssalam. Kiçik fərq odur ki, əgər “liberal demokrat”ların və kommunistlərin liderləri yalnız bəyanat verirsə, Putin bu yöndə real iş görür. Unutmayaq, bu - həmin Putindir ki, hakimiyyətə gələn kimi SSRİ-nin himnini Rusiyanın himni kimi təsdiqlədib.

Bəs SSRİ-nin “zühuru” mümkünmü? Rusiyanın “Şeyx Nəsrullah”ı bunu bacararmı? İş ondadır ki, acından ölən sadə rusların çoxu “Şeyx Nəsrullah”la həmfikirdir - sorğu aparılsa, buna asanlıqla əminlik hasil etmək olar. Krımın ilhaqına rus cəmiyyətinin (“Rusiya toplumu” anlayışı ilə qarışdırmamalı!) təqdiredici reaksiyası yəqin ki, yaddan çıxmayıb.

Sözsüz ki, rəsmi Moskva, jirinovskilər, züqanovlar cəmiyyətdəki bu ovqatı yaxşı bilir və ondan çıxış edirlər, ondan ilham alırlar. Postsovet ölkələri üçün ən böyük təhlükə də zatən, buradan - rus toplumundakı velikorus virusundan qaynaqlanır.

Odur ki, Kremlin Ukrayna, Donbas eksperimentindən çox şey asılı olacaq. Azərbaycan da daxil olmaqla, postsovet ölkələrinin taleyi faktiki şəkildə Ukraynada həll olunur. ABŞ buna imkan verəcəkmi? Böyük siyasətdə piyada olan D.Trampın kaprizlərinin altını azərbaycanlılar, gürcülər, ukraynalılar, moldovanlar, qazaxlar çəkməyəcək ki?

Hələlik bunu əminliklə söyləmək olar ki, əgər Putin Krımın ilhaqını Qərbin gözündə legitimləşdirməyə nail olub, Ukraynanı ram edə bilsə, o zaman Krım və Ukrayna ilə kifayətlənməyəcək. Sonrakı hədəflərin hara olacağı isə yəqin ki, aydındır.

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

# 2 fevral Gənclər Günü - bir günə iki baxış

## Ölkə gəncliyinin durumu ümumən xalqın durumundan fərqlənmir; iqtidaryönlü gənclər razı, müxalifətçi gənclər isə narazıdır...

**2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd edilir. Belə bir gün 1997-ci ildə, mərhum prezident Heydər Əliyevin sərəncamı ilə təsdiq olunub. Gənclər günü MDB məkanında və Şərqi Avropada ilk olaraq Azərbaycanda qeyd olunub. Bundan sonra digər MDB ölkələri və Şərqi Avropa dövlətlərində də bu gün qeyd olunmağa başlayıb.**

Statistik məlumata görə, ölkə əhalisinin 2,6 milyon nəfərini və ya 27,1 faizini gənclər təşkil edir. Gənclərin 51,2 faizi şəhərlərdə, 48,8 faizi isə kənddə yaşayır. Onların da 48,8 faizini qadınlar təşkil edir.

"Bizim gənclik azad düşünür, demokratik cəmiyyətdə yaşayır, məhdudiyyətsiz olaraq fəaliyyət göstərir". Bu sözləri Milli Məclisin gənclər və idman komitəsinin sədri **Fuad Muradov** Gənclər Günü ilə bağlı açıqlamasında bildirib. Deputat deyib ki, bu gün Azərbaycanda uğurlu dövlət gənclər siyasəti həyata keçirilir: "Bütövlükdə ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər bu gün demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar". Fuad Muradov həmçinin bugünkü gənclikdə hərbi vətənpərvərlik ruhunun çox yüksək olduğunu vurğulayıb.




**Bəs Azərbaycan gəncliyi bu günü necə dəyərləndirir?**

**"Gənclər bu gün dövlətin qayğısını hiss edir, və azad şəkildə, demokratik qaydada bundan yararlanır". Bu sözləri "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov "Yeni Müsavat"a açıqlamasında bildirdi. Təşkilat sədri gənclik mövzusunun hər zaman öndə olduğunu deyib:** "Bildiyiniz kimi, bu il artıq Azərbaycan Gənclər Gününün təsis edilməsinin 20 illiyi ərəfəsindəyik. Və Azərbaycanda baş verən bütün proseslərin fonunda gənclər və xüsusən də gənclər siyasətinin inkişafı mövzusu hər zaman öndə olub. Azərbaycan gənclər siyasəti ilə digər ölkələrlə müqayisə etsək, çox rahat şəkildə demək olar ki, hər il Azərbaycanda gənclərlə bağlı yeni proqramlar, sərəncamlar, yeni dövlət layihələri həyata keçirilir. 2016-cı ildə dünyada baş verən ictimai-siyasi, iqtisadi çətin olan məsələlər fonunda sosial məsələlər içərisində dayanan ən mühüm problemlərdən biri gənclər istiqamətidir. Məhz buna görə düşünürəm ki, gənclik bu vəziyyətə hazırdır. Bununla bağlı təşkilat olaraq xüsusi tədbir hazırlamışdıq, lakin hava şəraiti ilə əlaqədar onu həyata keçirə bilmədik. Yaxın günlərdə onu qeyd edəcəyik".

**AĞ Partiya isə Gənclər Gününü ümumiyyətlə qeyd etmir. Bu barədə partiyanın gənclər təşkilatının sədri Kərim Kərimli dedi:** "Gənclərin əksəriyyəti gənc olduqlarını unudublar. Bu isə qayğıların, problemlərin çoxluğundan, işsizlikdən və sairədən irəli gəlir. Gənclər nəinki Gənclər Gününü qeyd edir, hətta öz həyatlarını yaşaya bilmirlər. Bəli, bu gün azad düşünən gənclər var, amma əksəriyyəti buna görə əziyyət çəkir. Yeni öz hüququnu tələb edən gənclər çox zaman həbslə üzləşir".

Əlavə edək ki, Gənclər Gününü təmtəraqlı keçirən gənclərlə yanaşı, siyasi baxışlarına, mövqelərinə görə bu günü, eləcə də gənclik illərini həbsxanalarda keçirən gənclər də var. Onlar arasında NİDA-çı fəallar - Elgiz Qəhrəmani, Bayram Məmmədov, Qiyas İbrahimovu və digərlərini qeyd etmək olar.

❑ Xalidə GƏRAY

# Vaşinqtonda həbsdəki gənclər üçün 3 min dollar toplandı

## Tədbir iştirakçıları Azərbaycanda siyasi məhbus sayılan şəxslərə məktublar yazıblar

**Yanvarın 31-i ABŞ paytaxtı Vaşinqtonda bir sıra azərbaycanlı fəal "Azərbaycandakı siyasi məhbuslara dəstək verin!" adlı tədbir keçiriblər. Kampaniya ərzində onlar 3000 ABŞ dolları toplayıblar. Tədbirdə ABŞ və digər ölkələrin nümayəndələri də iştirak edib.(AzadlıqRadiosu).**

Tədbir təşkilatçılarından Aynur Cəfər ianə kampaniyasının məhbus ailələrinə yardım etmək məqsədi daşıdığını deyib. Onun bildirməsinə görə, siyasi məhbusların əksəriyyəti kişilər olduğundan, onların həbsi ilə ailələri bir sıra maddi çətinliklərlə üzləşir. Bu ianə kampaniyası nəticəsində toplanan pulla onlara, az da olsa, kömək edə bilərlər.

Tədbirin digər təşkilatçısı Tamara Qriqoryeva isə deyib ki, siyasi məhbuslara onların unudulmadığını xatırlatmaq, bütün dünyadan insanların onların yanında olduğunu bildirmək çox vacibdir.

Tədbirin iki xüsusi qonağı ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kazlariç və keçmiş məhbus Adnan Hacızadə olub.

Keçmiş səfir Azərbaycanla bağlı xatirələrindən, xalqa olan sevgisindən və siyasi baxışlarına görə həbs olunan insanlara yardımın mühümlüyündən bəhs edib. O, bu tədbirin vacibliyini vurğulayaraq deyib ki, Azərbaycandakı siyasi məhbus problemi daim gündəmdə olmalıdır.

Tədbirdə azərbaycanlı fotoqraf Cahangir Yusifin "Distance" ("Məsafə") adlı fotosərgisi nümayiş etdirilib. Fotosərgidə məhbusların və ailə üzvlərinin fotoları yer alıb.

Sonda tədbir iştirakçıları Azərbaycanda siyasi məhbus sayılan şəxslərə məktublar yazıb, açıqcalar imzalayıblar.

Azərbaycan rəsmiləri isə ölkədə siyasi məhbusların olması fikrini qəbul etmirlər. Onlar deyirlər ki, siyasi məhbus sayılan şəxslər məhz törətdikləri əmələ görə məsuliyyətə alınıblar.

# Azərbaycan bahalaşma üzrə Avropada liderdir

## Ekspert: "Ölkəmizi qonşu Gürcüstanla, Rusiya və Qazaxıstanla müqayisə etmək lazımdır"

**Azərbaycan ötən il inflyasiya dərəcəsinə görə Avropada lider olub. Nə qədər ironik səslənsə də, statistika məlumatlar bunu təsdiq edir. 2016-cı ildə Azərbaycanda orta illik inflyasiya Avropadan 10,8 dəfə çox olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, inflyasiya 12,4% təşkil edibsə, Avropa zonasında bu rəqəm cəmi 1,14%-dir.**

Ölkəmizdə ərzaq üzrə inflyasiya Avropadan 13,3 dəfə çox olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda ərzaq məhsulları 14,7% bahalaşıb, Avropa statistikası isə Avropada bir faizlik inflyasiya olduğunu deyir.

"Turan" agentliyinin hesablamalarına görə, 2016-cı ildə istehlak səbətində 30 növ əsas ərzaq məhsulu üzrə qiymət artımı 18% təşkil edib, ən mühüm məhsullar üzrə isə qiymətlər 22%-dən 100%-ə qədər qalxıb.

Mal əti 42,8%, qoyun əti 22,2%, toyuq əti 25,9%, kərə yağı 42,1%, qarğıdalı yağı 44%, marqarin 33,3%, yumurta 30,7%, şəkər tozu 66,6%, qənd 33,3%, duz 28,5%, düyü 38%, xama 22,2%, kartof 33,3%, baş soğan 30%, xiyar 100%, pomidor 94,4% bahalaşıb.

Müasir Avropa tarixi SSRİ dağıldıqdan sonra belə bir inflyasiya artımı qeydə almayıb. Avropa İttifaqında inflyasiyanın səviyyəsi son 20 ildə illik 2% həddində dəyişir. Ən yüksək artım 2007-ci ildə qeydə alınıb - 3,2%.

2016-cı ildə Avropa zonası inflyasiya səviyyəsinə görə Yunanıstan, Yaponiya və Fransadan sonra dünyada dördüncü yeri tutur.

**Bu statistikanı dəyərləndirən iqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son iki ildə Azərbaycanda inflyasiya səviyyəsinin sürətlə yüksəlməsinin səbəbi devalvasiyadır:** "Əsas səbəb manatın dəyərdən düşməsi oldu. Əgər manat 2015-ci ilin fevralında və dekabrında kəskin şəkildə devalvasiyaya uğradısa, 2016-cı ildə yumşaq şəkildə təqribən 20 faizə yaxın yenidən dəyər itirdisə və bu gün artıq rəsmi məzənnə 1,91 səviyyəsindədirsə, Azərbaycanda inflyasiyanın yüksəlməsi normaldır. Çünki biz idxaldan kifayət qədər asılı ölkəyik. Bir çox məhsul növləri üzrə kifayət qədər ciddi asılılığımız var. İstər dərman preparatları, uşaq qidaları, istər geyim malları, istər avtomobil ehtiyat hissələri xaricdən idxal olunur. Hətta ərzaq məhsulları üzrə böyük asılılığımız var. Yerli məhsul adı ilə bazara çıxan ərzaq mallarının xammalı xaricdən gətirilir. Bu səbəbdən, manatın iki dəfə devalvasiyaya uğraması və sonra yenidən dəyərdən düşməsi idxal mallarının qiymətini də artırmış oldu. Necə ki, biz indi bunu müşahidə edirik".

**Natiq Cəfərlinin sözlərinə görə, hökumətin bəzi qərarları da qiymətlərin artmasına səbəb oldu:** "Kommunal xidmətlərin bahalaşması yerli istehsal olan məhsulların maya dəyərinin artmasına gətirib çıxartdı. Bu da sürətli bahalaşmaya səbəb oldu. Bütün bu faktorlar Azərbaycanda qiymət artımının daha sürətlə getməsinə və inflyasiya dərəcəsinin artmasına səbəb oldu. Bu baxımdan, mən Avropa ölkələri ilə müqayisəni doğru saymıram. Çünki avrozonaya daxil olan ölkələrin daxili bazarlarında sədlər yoxdur. İstehsal olunmuş məhsulların və xidmətlərin sərbəst dövriyyəsi mövcuddur. Ümumi valyuta məkanı var. Ona görə də Avropa ilə müqayisə doğru deyil. Azərbaycanı qonşu Gürcüstanla, Rusiya və Qazaxıstanla müqayisə etmək lazımdır. Bu ölkələrdən Rusiya və Qazaxıstanda yerli valyuta kifayət qədər ciddi devalvasiyaya və inflyasiyaya uğradı. Düzdür, Azərbaycanda bundan daha böyük inflyasiya olub. Bu da bizim digər ölkələrlə müqayisədə idxaldan daha çox asılı olmağımızla əlaqədardır. Rusiyada bu problem o qədər də ciddi deyil. Ən azından ərzaq məhsullarında və bir çox sahələr üzrə yerli istehsalın mövcudluğu qiymət artımını azaldıb".

**N.Cəfərli onu da vurğuladı ki, əslində Azərbaycanda bizdən asılı olan səbəblərin də qiymət artımında rolu böyükdür:** "İllərdir Azərbaycan iqtisadiyyatının xroniki xəstəlikləri var. Bu, inhisarçılıqdır, korrupsiyadır və bu faktorlar hər zaman qiymətlərin yüksək olmasına səbəb olurdu. Bunun üzərində devalvasiyanın nəticələrini də gələndə Azərbaycanda inflyasiya digər ölkələrə nisbətən dəhşətli dərəcədə fərqlənməyə başladı. Elə bir iqtisadi mexanizm yoxdur ki, qısa zamanda bunun qarşısı alınsın. Bunun üçün idarəetmədə və iqtisadiyyatda islahatlara ehtiyac var. Düşünürəm ki, hətta doğru addımlar atılsa belə, iqtisadiyyatın dirçəlməsi üçün bizə bir neçə il lazım olacaq. Lakin siyasi idarəetmədə islahatlar aparılmasa, bu addımların heç bir xeyri olmayacaq. Bunu biz Qazaxıstanın təcrübəsində gördük. O ölkədə yeni bir idarəetmə modeli formalaşdı. Bunun əsas səbəbi isə iqtisadiyyatda baş verən problemlərin qarşısını almaq istəyi idi. Azərbaycan da gec-tez bu addımı atmalı olacaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

# Ermənistanın "əsir" təxribatı - Elnur Hüseynzadə necə girov düşüb...

## Azərbaycan Müdafiə Nazirliyi: "Ermənilərin girov götürdüyü Elnur Hüseynzadə bir müddət əvvəl Silahlı Qüvvələrdən tərxis olunub və hazırda hərbi xidmətdə deyil"...

**Ermənistanın Müdafiə Nazirliyi məlumat yayaraq, silahlı qüvvələrin təmas xəttinin şimal istiqamətində, Talış kəndi yaxınlığında baş vermiş silahlı qarşıdurma nəticəsində Azərbaycan ordusunun əsgərinin əsir düşdüyünü bildirib. Lakin bu xəbər Ermənistanın növbəti yalanı, təxribatıdır.**

Ermənistan mətbuatında yayılan məlumatda qeyd olunub ki, guya döyüş fevralın 1-i təxminən saat 15:00-da baş verib. Əsir düşmüş əsgər isə 1995-ci ildə Bərdə rayonunda anadan olmuş sıravi Elnur Hüseynzadədir.

**Yayılan bu məlumatlara Azərbaycan Müdafiə Nazirliyinin reaksiyası gecikmədi və məsələ ilə bağlı nazirlik ard-arda iki açıqlama yaydı. Belə ki, Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunub:** "Azərbaycan Silahlı Qüvvələri bölmələrinin fevralın 1-də cəbhə xəttində guya təxribat törətməsi və itki verməsi barədə erməni tərəfinin yaydığı məlumat yalandır. Cəbhə xəttində heç bir aktiv döyüş toqquşması baş verməyib. Erməni tərəfinin yaydığı xəbərdə adı çəkilən Elnur Hüseynzadə mütəmadi olaraq hərbi intizamı pozması və xidmətə çıxmaması səbəbindən bir müddət əvvəl Silahlı Qüvvələrdən tərxis olunub və hazırda hərbi xidmətdə deyil".

**Yayılan növbəti açıqlamada isə aşağıdakılar bildirilib:**

"Erməni tərəfi guya Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin fevralın 1-də cəbhə xəttində təxribat törətməsi və hərbi qulluqçu Elnur Hüseynzadənin əsir düşməsi barədə yaydığı yalan məlumatdan şou düzəltmək niyyətindədir. Böyük ehtimalla ermənilər Elnur Hüseynzadənin hərbçi olduğunu nümayiş etdirmək üçün onun əsir düşdüyü zaman guya hərbi geyimdə, hətta silahlı olmasını belə əks etdirən foto və video materialların yayılmasını təşkil edə bilər. Onu da qeyd edək ki, hərbi geyim formasını müxtəlif xüsusiləşdirilmiş ticarət obyektlərindən də əldə etmək mümkündür.

Müdafiə Nazirliyi KİV nümayəndələrini və sosial şəbəkə istifadəçilərini erməni təbliğat maşınının uydurmalarına inanmamağa çağırır və bir daha bildirir ki, E. Hüseynzadə bir müddət əvvəl Silahlı Qüvvələrdən tərxis olunub və hazırda hərbi xidmətdə deyil".

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan vətəndaşının ermənilər tərəfindən saxlanması ilə bağlı məlumat yayıb.**

Komissiyadan lent.az-a verilən məlumata görə, Dövlət Komissiyasına daxil olmuş məlumata əsasən, Ermənistan-Azərbaycan qoşunlarının aralıq xəttində, cəbhənin Talış istiqamətində Ermənistan hərbçiləri tərəfindən saxlanılmış Azərbaycan Respublikasının vətəndaşı, 1995-ci il təvəllüdlü Hüseynzadə Elnur Elman oğlunun azad edilməsi məqsədilə aidiyyəti beynəlxalq təşkilatlar məlumatlandırılıb və zəruri tədbirlər görülür.

**Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirib ki, məsələ ilə bağlı bir sıra suallar ortaya çıxır:** "İstənilən halda əgər Elnur Hüseynzadə Bərdə rayon sakinidirsə, sual yaranır ki, vətəndaş necə ermənilər tərəfindən girov götürülüb. Yəqin ki, bütün bunlar aydınlaşdırılacaq. Ancaq məni ən çox narahat edən məsələ odur ki, biz şəhid əsgərimizin Ermənistanla mübarizəsini apardığımız zaman növbəti bir Azərbaycan vətəndaşı düşmən əlinə keçib. Kimliyindən asılı olmayaraq, bu məsələ çox ciddi araşdırılmalıdır.



Elnur Hüseynzadə

İşə hərtərəfli yanaşmaq lazımdır və məsələyə hüquqi qiymət verilməlidir. Necə olub ki, Azərbaycan vətəndaşı Ermənistan hərbiçiləri tərəfindən girov götürülüb? Ermənistan tərəfindən istənilən təxribat mümkündür. Onlar hər bir vasitəyə əl ata bilərlər. Müdafiə Nazirliyinin açıqlamasında deyildiyi kimi, Elnurun əlinə silah da verib, hərbiçi paltarı da geyindirə bilərlər. Əgər Elnur Azərbaycan ordusunun müddətdən artıq hərbi qulluqçusu olubsa, deməli, onda ən azından xidmətdə olduğu hərbi hissə ilə bağlı az da olsa məlumat var".

**Ü. Cəfərov qeyd edib ki, qarşıdakı günlərdə bir çox məsələlər aydınlaşacaq:** "Hələ ki məsələnin tam məğzi bəlli deyil. Ermənistan mətbuatının verdiyi məlumata görə, onlar Elnur Hüseynzadənin ailəsinə müraciət ediblər ki, övladlarına görə narahat olmasınlar. Əslində isə mətbuatlarında bizi faşist kimi təqdim edən ermənilərin özləri bəlkə də analoqu olmayan faşist hərəkəti nümayiş etdirirlər. Rəhmətə gedən şəhid əsgərimiz Çingiz Qurbanovla bağlı əməlləri buna misal kimi göstərə bilərik. Anlaşılandır ki, müharibə aparan ölkədə əsir də, itkin düşən də ola bilər. Hər halda bu, çox ağrılı bir xəbərdir. Mülki vətəndaşdı, necə girov alıblar? Bu kimi suallara da yəqin ki, yaxın günlərdə aydınlıq gətiriləcək".

Elnurun anası Səidə Hüseynovanın "İstiPress"ə verdiyi məlumata görə, Elnur hərbi xidmətini başa vurduqdan sonra yenidən hərbi xidmətə yollanıb və müddətdən artıq hərbi xidmətdə olub. O, sonuncu dəfə fevralın 1-də səhər evdə olub.

❑ Əli RAİS



# Manatın taleyi okeanın o tayında həll olunacaq

## FES dolları bahalaşdırmadı, amma manata təhlükə qalır...

**ABŞ-ın Federal Ehtiyat Sistemi (FES) bu dəfə dolları bahalaşdırmayıb. FES-in İdarəçilər Şurası fevralın 1-də faiz dərəcəsini 0,5-0,75 faiz səviyyəsində saxlamaq qərarına gəlib.**

Xatırladaq ki, son dəfə ötən il dekabrın 14-də FES uçot dərəcəsini artırmışdı. Bundan əvvəl 2015-ci il dekabrın 16-da tənzimləyici uçot dərəcəsinin baza faiz dərəcəsini illik 0-0,25 faiz artırılması barədə qərar qəbul etmişdi.

**Ekspert Natiq Cəfərli** bildirib ki, uçot dərəcəsi artmayıb, amma rəsmi açıqlamada maraqlı məqamlar var: "Mətndə qeyd edilir ki, ABŞ iqtisadiyyatı pozitiv dinamika göstərir, inflyasiya gözləntilərdən də tez artır, işsizlik azalır, buna görə də FES faiz artımını plana uyğun apara bilər. Hətta qeyd edilib ki, 2019-cu ilə qədər uçot dərəcəsinin 3 faiz həddində olması ehtimalı çox yüksəkdir, bu isə o deməkdir ki, yaxın 2 ildə, hər dəfə 0,25 faiz olmaqla, uçot dərəcəsi 10 toplantıda artırıla bilər. Bəzi media qurumları yazır ki, Tramp dolları ucuzlaşdıracaq, ABŞ sistemini öyrənmək lazımdı, Trampın elə bir imkanı və alətləri yoxdur ki, bunu etsin. Hətta miqrantlarla bağlı son fərmanını belə həyata keçirə bilmədi, məhkəmə hakimiyyəti həmən işə düşdü, öz nəzarət funksiyasını işə saldı. Tramp "baha dollar bizə ziyandır" deyib, amma səhvdir, ABŞ ixracatına baha dollar cüzi təsir edir, yəqin ki, komandası bunu da ona başa salacaq. ABŞ-ın dünyaya satdığı məhsulların çoxu unikaldır, ancaq ABŞ istehsal edir, bu anlamda, baha dollar çox az təsirə malikdir. Məsələn, Apple məhsullarını dolların məzənnəsinə görə dünya almır ki, Apple olduğuna görə alır. Bir sözlə, FES sürətlə faiz dərəcəsini artırmağa başlasa, dolların dünyada bahalaşması sürətlənəcək, bu bizə iki yöndən təsir edəcək: həm neft qiymətləri, ən azından, bahalaşmayacaq, həm də bahalaşan dollar bizim manata daha çox basqı yaradacaq, manatın ucuzlaşması daha da sürətlənəcək".

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında qeyd edib ki, FES-in faiz dərəcəsini artırmaması manatla bağlı təhlükəni sovuşdurmur:** "Faiz dərəcəsinin artması ehtimalı onsuz da az idi. Ayyarım əvvəl uçot dərəcələri artırılmışdı. İndi yenidən artırma ehtimalı yox idi. Amma istənilən halda, bu il iki dəfə artırılma qərarı veriləcəyini düşünürəm. Çünki həm bu, FES-in Donald Trampla olan pis münasibətləri ilə bağlıdır. Həm də bunun başqa səbəbi də odur ki, Tramp iqtisadiyyata çox pul qoyulmasını fikirləşir. Bu da inflyasiyaya apara bilər. Ona görə də FES məcbur olacaq ki, faiz dərəcəsini artırsın və inflyasiyanın qarşısını alsın. Bu halda bizim valyutanın devalvasiya təhlükələri də güclənəcək. Amma bizdə onsuz da devalvasiya öz-özünə də davam edir. Dollar heç qalxmasa belə, manat üzüaşağı düşür. Manat bu gün çətin vəziyyətdədir. Dollar bahalaşmasa belə, manat onsuz da ucuzlaşır. Dollar qalxsa, bu, bizim üçün çox pis olacaq. O halda bizdə devalvasiya daha kəskin ola bilər. Bu ehtimal böyükdür".

❑ Röya RƏFİYEVA

# Varlıların əvvəl kapitalı, sonra özləri ölkədən çıxır

## Qadir İbrahimli: "Kapital həmişə təhlükəsiz məkana can atır"

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev "Yeni Müsavat"ın ötən sayında Azərbaycandakı məmurlarla bağlı bir sıra maraqlı fikirlər səsləndirib. Onun dedikləri geniş müzakirələrə səbəb olub. "Turan" rəhbəri bildirib ki, varlılar kütləvi şəkildə pulları ölkədən çıxarırlar.**

Öz fikirlərini bazarlarda dolların durumu ilə əsaslandıran M.Əliyev iqtisadi böhranın dərinləşdiyi ölkədə böyük kapitalların xaricə daşındığını qeyd edib. O, pullarını Azərbaycandan çıxaran məmurların ertəsi gün ölkəni tərk etməsinin çətin olmayacağını da bildirib. "Turan" rəhbəri hər bir məmurun hazırda daha çox bu barədə düşündüyünü söyləyib.

**İqtisadçı ekspert Qadir İbrahimli** hesab edir ki, məmurların kapitallarını ölkədən çıxarması onların "vurulması" ilə bağlı deyil, Azərbaycanda mülkiyyət toxunulmazlığına əməl olunmaması ilə bağlıdır: "Məmurlar yaxşı bilirlər ki, istənilən an onların əmlakı əllərindən alına bilər. Yaxın keçmişimizdə bununla bağlı kifayət qədər faktlar var. Fərhad Əliyev vurulandan sonra "Azpetrol" şirkəti əlindən alındı, Heydər Babayev də bu aqibəti yaşadı və əmlakını itirdi. Eyni zamanda hazırda vəzifədə olan Ziya Məmmədovun xeyli əmlakı əlindən çıxıb. Bu baxımdan, onlar hesab edirlər ki, mülkiyyətlərinin qorunmasına heç bir qarantiya yoxdur. Mülkiyyətlər Azərbaycanda müvəqqəti olaraq onlara məxsusdur. Bu baxımdan, onlar pullarını daha təhlükəsiz yerlərə köçürürlər. Əmlaklarının toxunulmazlığını təmin etmək istəyirlər. Kapital həmişə təhlükəsiz məkana can atır. İrihəcmli kapital necə ölə olunmasından asılı olmayaraq,



Qadir İbrahimli

daha təhlükəsiz mühitə doğru gedir. Hansı ki, həmin mühit Azərbaycanda yoxdur. Əksinə, mülkiyyət hüququ daha dözülməz hala çatıb. Hətta vətəndaşların belə mülkiyyət hüquqları kütləvi şəkildə tapdalanır. Milli Məclisin son iclasında spikerin obyektlərin sökülməsi ilə bağlı fikirləri çox absurd idi. Heç kimin evi, obyekti sökülə bilməz. Bu mülkiyyət toxunulmazlığına, dünya praktikasına, konstitusiyaya ziddir. Təəssüflər olsun ki, Azərbaycanda mülklərin müxtəlif yollarla sökülməsi artıq qanun şəklinə salınıb. Bütün bunlara görə nəinki iri mülkləri, xırda mülkləri olanlar belə əllərində olanı satıb, xaricə getməyə məcbur olurlar".

**İqtisadçı ekspert hökumətin bu yöndə konkret qərarlar qəbul etməsinin vacibliyinə də toxundu:** "Hər kəs qəbul etməlidir ki, onun mülkiyyəti toxunulmazdır, heç bir halda qəsb oluna bilməz. Hələ ki Azərbaycanda struktur islahatlarını gözləmirəm. Bir müddət əvvəl Ziyafət Əsgərov dedi ki, böhran Azərbaycandan yan keçdi. Hakimiyyətin sözçülərindən olan Siyavuş Novruzov isə parlamentin son iclasında dedi ki, hakimiyyət komandası dəyişməyəcək. Buradan o nəticəyə gəlmək olar ki, onlar heç bir islahatlara hazırlaşmır, komandanı dəyişmək istəmirlər. İqtisadi komandanı dəyişmədən, böhran komandası ilə islahatlara getmək qeyri-mümkündür. İslahatlara getməyin ən vacib şərti indiki böhran komandasının dəyişməsidir. Hansı ki, bu komanda ölkəni gətirib bu günə çıxarıb. Fəaliyyətsizlik, səriştəsizlik, korrupsiya halları bugünkü böhranı yaradıb. Əgər indiki iqtisadi komanda yerində sayacaqsa, heç bir yenilikdən söhbət gedə bilməz".

❑ Cavanşir ABBASLI



# Bəlkə qapımızı qaytarasınız?

**Zamin HACI**
zaminhaci@gmail.com

"Darvazamızı fələk vurubdu"
*(Əbdürrəhim bəy Haqverdiyev, "Mirzə Səfər" hekayəsindən)*

**Avropa Parlamenti Gürcüstan vətəndaşları üçün Şengen vizasını ləğv etdi. Artıq apreldən gürcülər və Borçalıda yaşayan azərbaycanlılar Avropaya maneəsiz gedib-gələcəklər. Məncə, artıq vaxtdır, gürcülər bizim Gəncə darvazasının bir tayını geri qaytarsınlar. İndi o darvaza bizə lazımdır - orta əsrlər istiqamətində gedən bizik. Hərçənd ola bilər gürcülər Avropaya elə bizim darvazadan keçib getdilər, axı həmişə "Azərbaycan Şərqlə Qərb arasında qapıdır" deyirik.**

Sözgəlişi, bizimkilər də bir ara bu qapı söhbətinə görə özlərinə yaman əl qatmışdılar, hətta Ələtdə liman da qayırdılar, ancaq ora üzüb gələn olmadı. Çünki Çin və Avropa arasında qədim İpək yolu artıq tamam başqa yerdən keçir, biləsiniz. Yanvarın 19-da Çindən ilk yük qatarı 16 günlük səfərdən sonra Londona çatdı, bununla da marşrutun əsasını qoydular. Həmin qatar yolu Qazaxıstan, Rusiya, Belarus, Polşa və başqa Avropa ölkələrindən keçir, gördüyünüz kimi, burda Azərbaycanın "a"sı da yoxdur. Daha bir beynəlxalq projeyə boynumuzu büküb uzaqdan baxırıq, çünki milyardlarla vəsaiti Bakı-Qars dəmiryolu adıyla basıb yeyən başçılarımız vardır.

Bu arada bir dəstə avaranı Müsavat Partiyasının ofisi qarşısına yığıb müsavatçıları söydürdülər. Ora gətirilənlər nə deyəcəklərini də bilmirdilər, o üzdən ancaq çılpaq söyüşlər söyüb getdilər. Bir gicbəsər isə hətta meqafonla belə qışqırdı: "İsa Qəmbər, sən Milli Məclisin sədri olanda deputatların sözünü kəsirdin!" Təsəvvür edin, söhbət 1992-93-cü illərdən gedir. Və 2017-ci ildə biri gəlib deyir ki, 24 il qabaq kiminsə sözünü niyə kəsdin. Bu qədər mənasız aksiya...

Hökumət bunu niyə edir, anlaşılmır, çünki müxalifətin nəfəsini çoxdan kəsiblər, ənənəvi müxalifət, o cümlədən Müsavat kiçik dissident qrupları şəklində güc-bəla ilə ömrünü sürür.

Məncə, yeganə səbəb kasıbçılıqdır. Neft pulu çox olanda müxalifəti söyməyə ehtiyac qalmırdı - hərənin ağzını beş-on manatla yumurdun, qurtarıb gedirdi. İndi isə yenidən xalq düşmənləri, daxili təxribatçılar, qara dairəyə alınan siyasi liderlər videolarına qayıdışdır. Bunsuz olmaz. Hər bir özünə hörmət edən totalitar sistemin iqtisadi çətinliklərdən diqqəti yayındırmaq, xalqı dahi rəhbər ətrafında sıx birləşdirmək üçün müxtəlif kateqoriyalı düşmənlərə ehtiyacı var. "Bunlar qoymur, yoxsa regionlar inkişaf edərdi" - tema budur.

O baxımdan, cəmi 3 gün qabaq nazirlərin iştirakı ilə keçirilən müşavirədə regionların inkişaf proqramının fısqırıq nəticələri haqda danışılanlara kimsə əks-sual verməməlidir. Misal üçün, soruşmaq lazım deyil ki, əgər regionlar belə inkişaf edibsə, nədən dövlət büdcəsinin gəlirlərində regionların vergiləri cəmi 3 faizdir? Qalan 97 faiz Bakı-Abşeronun payına düşür. Ola bilərmi regionlar inkişaf eləsin, ancaq vergi verməsin? Ola bilər. Niyə də olmasın? O kinoda Eldəniz Zeynalovun qəhrəmanı deyən kimi: "Lazım gəlsə, olar".

Belə gözəgörünməz, ilahi əməllərimiz geniş çeşiddədir. Dünən oxudum: daxili işlər nazirinin əmri ilə Filankəs Filankəsov Xocalı rayon polis şöbəsinə rəis təyin edilmişdir. Rayon faktiki yoxdur - yerində işğalçılar turp əkiblər, əhalisi genosidə uğrayıb, canını qurtarıb qaçan yazıqların hərəsi bir dərədə zülm çəkir, ancaq rayonun polis rəisi isə var! Eynilə bir lətifədəki kimi: adam qəssabdan ciyər alır, bunu necə bişirməyi də ordaca öyrənib kağıza yazır, evə gedəndə bir it çıxır, əti qapıb aparır. Adam itin dalıyca baxıb gülə-gülə deyir: "Apar, apar, onsuz konspekt məndədir, yeyə bilməyəcəksən".

Yeyə də bilməzlər. Odur, deputatlarımız toplaşıb qərar veriblər ki, biz İrəvanı ermənilərdən almalıyıq, qədim torpağımızdır. Ancaq Qarabağ arada qaldı elə bil ki. O zaman İrəvan Ermənistanın içində anklavımız olmazmı? İrəvanı alıb Qarabağla dəyişmək də yaxşı plandır.

Hərçənd dünən bir nəfərin çıxışını oxudum, deyir, Lələtəpədən baxanda 500-600 kilometr radiusda hər yerə nəzarət eləmək mümkündür. Məncə, az deyib. Ordan Venera planetinə qədər hər yer görünür.

Açıq havada hətta Çin qatarıyla Polşadan Almaniyaya keçən gürcüləri də görmək olurmuş.

# Vaşinqton və Brüsseldən İrəvana tərs sillə

**Bu günlərdə nüfuzlu beynəlxalq hüquq-müdafiə təşkilatlarından olan "Freedom House"un ötən il üçün hesabatı açıqlandı. Maraqlıdır ki, hesabatda işğalçı Ermənistan "qismən azad" ölkələr sırasında yer alıb. Ən absurdu da elə korrupsiyanın milli təhlükəsizliyi təhdid etdiyi bir ölkənin "qismən azad" ölkə hesab edilməsidir. Bunu təkcə biz demirik - ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz də söyləyir.**




## ABŞ və AB-nin İrəvan səfirləri Sərkisyanı faş etdi - ifşa açıqlamaları

Riçard Millzdən sərt xəbərdarlıqlar: "Korrupsiya Ermənistanın milli təhlükəsizliyini təhdid edəcək səviyyəyə gəlib"; "Aprel hadisələri göstərdi ki, Qarabağ məsələsi çözülmədən Ermənistanın inkişafı mümkün deyil"; Avropa Birliyinin İrəvandakı təmsilçisi isə 2017-nin Ermənistanda korrupsiya ilə mübarizədə "dönüş ili" olacağına ümid edir...

Xəbərlərə görə, sırağagün Amerika-erməni ticarət palatasında çıxış edən səfir bu qəbildən, faktiki surətdə hakim Sərkisyan rejimini faş edən açıqlamalar verib. Onun bir fikrini yuxarıda artıq diqqətə çatdırdıq. Diplomat həmçinin deyib: "Faciəvi aprel hadisələri bir daha qabarıq şəkildə göstərdi ki, həll olunmamış Qarabağ məsələsi üzündən nə qədər resurslar Ermənistana cəlb oluna bilmir".

Bununla da səfir işğalçı ölkənin inkişafdan qalması və xarici sərmayələrdən məhrum olmasının əsas səbəbi kimi Dağlıq Qarabağ problemini, yan səbəb kimi isə kriminal Sərkisyan rejiminin korrupsiyalaşmasını göstərib. Etiraf edək ki, sərt qiymətdir. Bunu Vaşinqtonun İrəvana tərs silləsi də saymaq olar.

Daha bir sərt sillə Avropa Birliyindən (AB) gəlib. Belə ki, qurumun Ermənistan nümayəndəliyinin rəhbəri Pyotr Svitalski dünən bəyan edib ki, "Avropa Birliyi 2017-ci ilin Ermənistanda korrupsiya ilə mübarizə ili olmasını arzu edir". "Biz əminik ki, 2017 bu xüsusda dönüş ili olacaq", - deyə AB səfiri qeyd edib. Diplomat bundan ötrü vətəndaş cəmiyyətinin səylərinin vacib olduğunu da diqqətə çatdırıb.

*****

Məsələ də ondadır ki, məntiqlə korrupsiya ölkəni və cəmiyyəti sarıbsa, demək, orada şəffaflıqdan, vətəndaş institutlarının nəzarətindən söhbət gedə bilməz. Deməli, təməl insan haqları, ələlxüsus da siyasi haqlar təmin olunmayıb. Elədirsə, təkrar edirik, o zaman Ermənistan necə "qismən azad" ölkə sayıla bilər - üstəlik, o, öz qonşusu Azərbaycanın ərazisinin 20%-ni işğal edib, 1 milyon insanı təbii haqlarından məhrum edibsə?!

Ən önəmlisi odur ki - səfirlər də elə buna işarə ediblər - Azərbaycan ərazilərinin işğalı Ermənistana, erməni xalqına səfalətdən, ilbəil dərinləşən korrupsiyadan, güclənən emiqrasiyadan və hakim klanın varlanmasından savayı heç nə gətirməyib. Həmin açıqlamalarda eyni zamanda belə bir xəbərdarlıq "qırmızı xətt" kimi keçir ki, Dağlıq Qarabağ konflikti çözülmədən Ermənistanda vəziyyət yaxşıya dəyişməyəcək, xarici sərmayəçilər buradan yan qaçacaq, ölkə böyük regional layihələrdən təcrid olunacaq.

**Məsələyə erməni təhlilçilərin şərhi də maraqlıdır. Məsələn, musavat.com-un məlumatına görə, lragir.am saytının təhlilçisi Akop Badalyan bu xüsusda "ABŞ Ermənistan hakimiyyətinin kartlarını açdı" başlıqlı məqaləsində amerikalı səfirə haqq qazandıraraq yazıb:** "Riçard Millz səfir təyin olunandan sonra öz fəaliyyətində 4 prioritet haqda bəyan eləmişdi - Amerika-erməni ticari əməkdaşlığının dərinləşdirilməsi, korrupsiya ilə mübarizə, demokratiya və insan haqlarına dəstək və ABŞ-ın xarici siyasət prioritetləri haqda Ermənistanın mütəmadi məlumatlandırılması. ABŞ səfiri Ermənistanın inkişafına maneənin Dağlıq Qarabağ konflikti olduğunu söyləməklə ilk baxışda qeyri-adi bir şey deməyib. Başqa yandan, bu, bir mesajdır ki, situasiyanı düzəltmək və Qarabağ maneəsini götürmək üçün ilk növbədə resurslar həmin 4 prioritet məsələnin həllinə yönəlmədir".

Həm ABŞ və AB rəsmilərinin xəbərdarlıqları, həm də erməni şərhçilərinin etirafından bir daha qənaət hasil olur ki, Sərkisyan rejimi öz hakimiyyət maraqları naminə faktiki surətdə öz xalqını girov saxlamaqda davam edir, onun inkişafına başlıca əngəl olaraq qalır. Əlbəttə ki, tövsiyə-məsləhətlər öz yerində, ancaq obrazlı desək, "Nə qədər mamaça olsa da, güc doğana düşür".

Yeni erməni xalqı düşdüyü belə acınacaqlı durumla barışmaq istəmirsə, o zaman ilk növbədə özü situasiyanı dəyişməli, Qarabağ ixtilafını - ölkəni inkişafdan saxlayan əsas problemi aradan qaldırıb Azərbaycanla ədalətli sülh anlaşmasına nail olacaq bir siyasi qüvvəyə mandat verməlidir. Həm də tez...

**❑ Analitik xidmət**

# İran səfirliyi REAL-dakı görüşlə bağlı bəyanat yaydı: "Üçüncü qüvvələr..."

## Səfirlik görüşün İran və Azərbaycan arasında dostluq münasibətlərinə zidd olmadığını bəyan etdi

**Ötən həftə virtualaz.org saytında İranın Azərbaycandakı diplomatik missiyasının nümayəndəsi ilə REAL hərəkatı rəhbərlərinin gizli danışıqları, həmçinin xarici dövlətin kəşfiyyat xidmətindən maliyyə köməyinin alınması şübhələr haqda məqalə dərc edilmişdi.**



Bunun ardınca Azərbaycanın baş prokuroru həmin məqalədə elan edilmiş faktlarla əlaqədar hərtərəfli araşdırmanın aparılması barədə göstəriş verdi.

Fevralın 2-də isə İranın Azərbaycandakı səfirliyi bu görüş haqqında öz mövqeyini ifadə edərək bəyanatla çıxış edib.

APA-nın yaydığı bəyanatda deyilir: "Bəzi media qurumlarında İranla Azərbaycan arasında mövcud münasibətlərin genişlənməsini istəməyən dairələrin İranfobiya xətti üzrə fəallaşdığının şahidi olduq.

Bu dəfə İranın Bakıdakı səfirliyinin bir əməkdaşının olduqca aydın, həm də diplomatik fəaliyyətə uyğun olaraq keçirdiyi görüş heç bir əsas olmadan bəzi media vasitələrinin hədəfinə çevrilib. Maraqlıdır ki, həm bu görüşdən öncə, həm də ondan sonra Bakıda fəaliyyət göstərən müxtəlif səfirlik əməkdaşlarının bu kimi görüşləri heç bir zaman həmin media qurumlarının ən xırda reaksiyası ilə üzləşməyib. İran səfirliyi həyata keçmiş görüşün İran və Azərbaycan arasında dostluq münasibətlərinə zidd olmadığını, səfirliyə qarşı yazılmış ittiham və aldadıcı yalanların hüquqi araşdırılması üçün qanuni haqqa malik olduğunu bildirir.

Sonda bir daha qeyd edirik ki, İran və Azərbaycan arasında münasibət və əməkdaşlıq iki dost və qardaş ölkə olaraq hər iki ölkənin rəhbərlərinin iradəsi ilə daha da möhkəmlənir və bütün sahələrdə uğurla davam edir. Bu baxımdan, üçüncü qüvvələr bu sahədə heç bir əngəl yarada bilməzlər".

# Tehran ermənilərlə yenə curlaşıb - ekspertdən şərh

## Elxan Şahinoğlu: "Müstəqil addımlarımızı İranın bəzi dairələrində həzm etmirlər"



**Ermənistanın müdafiə naziri Vigen Sərkisyan İranda 3 günlük səfərdə olub. Özünü müsəlman ölkə sayan rəsmi Tehranın işğalçıya isti münasibəti isə ölkəmizdə ciddi etirazla qarşılanır.**

**Politoloq Elxan Şahinoğlu** erməni müdafiə nazirinin İrana dəvət olunmasını anlamadığını bildirdi: "İranlı rəsmilər və diplomatlar adətən Ermənistanla əlaqələrin qonşuluq prinsipinə uyğun olduğunu deyirlər. İranlı diplomatlar qeyri-rəsmi söhbətlərdə Ermənistanla müqayisədə Azərbaycanla əməkdaşlığa üstünlük verdiyini bildirirlər. Ancaq həm bu səfər, həm də İran prezidentinin İrəvana səfəri Azərbaycanda xoş qarşılana bilməz. Rəsmi Tehran görür ki, cəbhə bölgəsində vəziyyət gərgindir, Ermənistan iki azərbaycanlını və bir hərbçimizin nəşini geri qaytarmır. Belə bir vaxtda işğalçı Ermənistanın müdafiə nazirinin Tehranda səmimi qarşılanması Azərbaycanın siyasi dairələrinin və cəmiyyətinin haqlı narazılığına səbəb olur. İrandakı hakim dairələr nə düşünür? Elə bilirlər ki, biz bunu normal qəbul edəcəyik? Axı son zamanlar Azərbaycanla İran arasında siyasi və iqtisadi təmaslar yoğunlaşıb, ortaq layihələr həyata keçirilir. Bu əməkdaşlığa niyə kölgə salmaq lazımdır? Əgər Tehran Ermənistanla əməkdaşlığı genişləndirmək yolu ilə Azərbaycana nəsə mesaj yollamaq istəyirsə, bu, uğursuz siyasətdir. Azərbaycan İranın Ermənistanla təmaslarına o halda normal yanaşardı ki, İran rəsmiləri Dağlıq Qarabağda saxlanılan iki azərbaycanlının və hərbçimizin nəşinin geri qaytarılması vacibliyini Ermənistan rəsmilərinin diqqətinə çatdırardı və ya deyərdilər ki, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması sülhə aparan yoldur. Bunun əvəzinə İranın müdafiə naziri erməni həmkarıyla görüşdə deyib ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli mümkün deyil. Bunu İranın şeytan adlandırdığı ABŞ rəsmiləri və diplomatları da deyir. Onda İranın bəyənmədiyi Amerikadan nə fərqi oldu ki?"

**Politoloqa görə, Netanyahu Azərbaycana səfər etməsəydi belə, Ruhani gec-tez Ermənistana gedəcəkdi və ya Ermənistanın müdafiə nazirini İrəvana dəvət edəcəkdilər:** "Biz İsraillə əməkdaşlıqdan niyə imtina etməliyik? Biz onlardan müasir silahlar alırıq və bu silahlar işğalçı qarşıya mübarizədə bizim karımıza çatır. Axı belə keyfiyyətli silahlar İranda yoxdur ki, onu qonşu dövlətdən alaq. Digər tərəfdən, Azərbaycanın İsraillə tərəfdaşlığına baxmayaraq, rəsmi Bakı Fələstin dövlətinin müstəqilliyinin tərəfdarıdır. Əgər İran Netanyahunun Azərbaycana səfərindən belə narahatdırsa və bizim acığımıza Ermənistanla əlaqələrini yoğunlaşdırırsa, onda eyni məntiqlə Tehran Rusiyanın acığına Ukrayna ilə də əməkdaşlığını genişləndirməlidir. Axı Tehran bunu etmir. Halbuki Netanyahu Rusiyaya da intensiv səfərlər edir və Tel-Əvivlə Kreml arasında sıx münasibətlər var. Deməli, söhbət heç də İsrail-Azərbaycan münasibətlərindən getmir, sadəcə, bizim müstəqil addımlarımızı İranın bəzi dairələrində həzm etmirlər".

**E.Şahinoğlu rəsmi Bakının İranla əlaqələrdən imtina etməsinin mümkünsüzlüyü barədə də danışdı:** "İranın Ermənistanla sıx təmaslarına baxmayaraq, Tehranla əlaqələrdən imtina etmək olmaz. Ortada konkret iqtisadi layihələr var. Həm də biz İranla əməkdaşlıq edərkən Arazın o tayında yaşayan soydaşlarımızı da nəzərə almalıyıq. Biz küsüb İranla əməkdaşlığı zəiflətsək, bu İrandakı soydaşlarımızın zərərinə olacaq. Belədə isə uzun illərdən sonra Təbrizdə konsulluğumuzun açılmasına nail olduq, iki dövləti birləşdirən dəmir yolu xəttinin istifadəyə verilməsinə az qalıb, İran Bakı ətrafında bir neçə zavod tikəcək. Onu da nəzərə almaq lazımdır ki, İranda bu hakimiyyət əbədi deyil. Digər tərəfdən, İranla əməkdaşlıqda həssas məqamı da nəzərdən qaçırmamalıyıq. İran hakimiyyəti içində, siyasi və hərbi dairələrində, hətta tanınmış din xadimləri arasında xeyli soydaşımız var. Əlbəttə, onların bir qismi mühafizəkardır və Azərbaycanın müstəqil siyasətini qəbul etmir, hətta Ermənistanla əməkdaşlığa önəm verirlər. Ancaq bu şəxslərin içində gizli də olsa azərbaycançılığa, türklüyə, bir sözlə, millətə bağlılıq da var. Onlar bu hissləri daxillərində gəzdirirlər və bir gün İranda durum dəyişsə, həmin şəxslər bu hisslərini açığa çıxaracaqlar. İndi biz İranla əməkdaşlığımızı azaltsaq, onların mübarizəsinə də zərbə vurmuş olacağıq".

❑ **Cavanşir ABBASLI**

## Əli Həsənov Səudiyyə Ərəbistanının kralı ilə görüşüb



**Fevralın 1-də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Ər-Riyadda İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud ilə görüşüb.**

AzərTAc xəbər verir ki, Əli Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səuda çatdırıb. Prezidentin köməkçisi dost və qardaş ölkələrimiz arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu söyləyib.

Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını dövləti başçısına çatdırmağı xahiş edib.

Prezidentin köməkçisi Əli Həsənov Səudiyyə Ərəbistanına səfərə dəvətə görə Kral Salman bin Əbdüləziz Al Səuda və mədəniyyət və informasiya naziri Adil bin Zeyd ət-Tureyfiyə təşəkkürünü bildirib.

## "Regnum": "Belarus KTMT-dən çıxmağa hazırlaşır"



**Belarus Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmağa hazırlaşır. Bu barədə "Regnum" agentliyi məlumatlı mənbələrə istinadən xəbər yayıb. Məlumatda bildirilir ki, rəsmi Minsk Rusiya-Belarus İttifaq Dövlətini də tərk edə bilər.**

"Regnum"a məlumat verən mənbə deyib ki, rəhbərliyin siyasətindən asılı olmayaraq istənilən halda Belarus xalqı qardaş xalq olaraq qalacaq.

Qeyd edək ki, rəsmi Minsk 80 ölkə vətəndaşına müvəqqəti vizasız rejim tətbiq etdikdən sonra Rusiya hökuməti bu ölkə ilə sərhəddə insanların və nəqliyyatın gedib-gəlişini yoxlamaq üçün sərhəd zonalarının yaradılmasına dair qərar qəbul edib.

## Latviya prezidenti Azərbaycana səfər edəcək



**Latviya prezidenti Raymonds Veyonis mart ayında Azərbaycana səfər edəcək. Latviya prezidentinin ofisindən verilən məlumata görə, dövlət başçısı martın 16-18-də keçiriləcək V Bakı Qlobal Forumunda iştirak edəcək. ("Report").**

Səfər zamanı R.Veyonis həmçinin Azərbaycan rəsmiləri ilə bir sıra ikitərəfli görüşlər keçirməyi planlaşdırır.

## Dumanın Bakıdakı iclası xəbəri aranı qatıb-Rusiya səfirliyi susur

### "Əgər Rusiya Duması belə bir qərar qəbul edibsə, deməli ki, Azərbaycan tərəfi də buna razılaşıb"



**Rusiya Dövlət Duması 2017-ci il üçün beynəlxalq səfərlər planında dəyişikliklər edib. "Trend" bir neçə gün əvvəl xəbər verib ki, qərar bu il üçün Rusiya federal büdcəsinin qəbul olunmasından və AŞ PA-nın qış sessiyasında iştirakdan imtina etdikdən sonra qəbul olunub. Məlumata görə, Dövlət Dumasının 2017-ci ildə fəaliyyət prioritetləri MDB və BRİKS ölkələri ilə parlamentlərarası əməkdaşlıq olacaq. Məlumatda sonra deyilir ki, bu il Dövlət Dumasının Rusiya xaricində səyyar iclaslar keçiriləcək. Bu iclasların Azərbaycan və Qırğızıstanda keçirilməsi planlaşdırılıb.**

Rusiya Dövlət Dumasının Azərbaycanda iclaslarının keçiriləcəyi barədə xəbər yayılmasından sonra belə bir addımın Azərbaycanın Konstitusiyasına uyğun olub-olmayacağı barədə müzakirələr başlayıb. Məsələ hətta Milli Məclisin iclasına qədər gedib çıxıb. **BAXCP sədri, deputat Qüdrət Həsənquliyev** Milli Məclisin 1 fevral iclasında bildirib ki, mətbuatda belə məlumat gedib ki, Rusiya Dövlət Duması Azərbaycanda xüsusi iclasını keçirmək istəyir, bu, bizim suverenliyimizə həqarətdir: "Bir suveren dövlətin ali hakimiyyət orqanının digər suveren dövlətin ərazisində iclas keçirməsi dünyada görünməmiş haldır və buna yol vermək olmaz". **Q.Həsənquliyev qeyd edib ki, məsələ dəqiqləşdirilməlidir. Əgər mətbuatın yazdığı həqiqətdirsə, Milli Məclis məsələyə münasibət bildirməlidir:** "Bir dəfə Duma Azərbaycanda, yaxud Milli Məclis Rusiyada öz iclasını keçirə bilər. Amma Dumanın gəlib Bakıda, Azərbaycanda ayrıca iclas keçirməsi bizim suverenliyimizə hörmətsizlikdir".

**Vitse-spiker Valeh Ələsgərov məsələyə aydınlıq gətirərək bildirib ki, söhbət Rusiya Dövlət Dumasının Azərbaycanda iclas keçirməsindən getmir:** "Söhbət Rusiya Dövlət Duması və Azərbaycan Milli Məclisinin əməkdaşlıq komitəsinin iclasından gedir. Yəni iş planına əsasən bir dəfə Bakıda, bir dəfə də Moskvada əməkdaşlıq iclası nəzərdə tutulur. Yenə deyirəm, Dumanın, ya da Milli Məclisin iclasından söhbət getmir".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə "Yeni Müsavat"a bildirib ki, Rusiya Dövlət Dumasının Rusiya xaricində səyyar iclaslar keçirməsi barədə ətraflı məlumata malik deyil. Əgər belə bir iclas Azərbaycanda keçirilirsə və hakimiyyət də buna razılaşırsa, bunun hər kəsin başa düşə biləcəyi bir səbəbi olmalıdır və səbəb ictimaiyyətə bildirilməlidir:** "Belə bir təcrübənin olması haqqında da bir şey deyə bilmərəm. Bildiyim budur ki, Rusiya bu iclasa parlamentlərarası əməkdaşlıq kimi və MDB məkanında inteqrasiyanın daha da güclənməsi kimi baxır. Əgər Rusiya Duması belə bir qərar qəbul edibsə, deməli ki, Azərbaycan tərəfi də buna razılaşıb. Azərbaycanın Xarici İşlər Nazirliyi, parlamenti və Prezident Administrasiyası bu məsələ ilə bağlı rəsmi açıqlama verməli və səbəbləri göstərməlidir. Bundan sonra biz məsələnin müsbət və mənfi olması barədə fikir yürüdə bilərik".

**Rusiya səfirliyinin isə mövzu ilə bağlı mövqeyini öyrənmək mümkün olmayıb. Gün ərzində səfirlik bu məsələyə hər hansı bir şərh verməyib.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017




# Rəqabət Məcəlləsinin "düyününün" sirri

## Ekspertlər bildirirlər ki, oliqarxların parlamentdəki adamları məcəllənin qəbuluna əngəl törədirlər...

**İnhisarçılığın aradan qaldırılması istiqamətində mühüm addım hesab olunan Rəqabət Məcəlləsi on ildən artıqdır ki, Milli Məclisdə ilişib qalıb. Ekspertlər bildirirlər ki, oliqarxların parlamentdə yerləşdirdikləri deputatlar bu məcəllənin qəbuluna maneə yaradırlar.**

Deputat Vahid Əhmədov parlamentdə bildirib ki, Milli Məclisin əvvəlki iclaslarında Rəqabət Məcəlləsi 2-ci oxunuşdan keçsə də, sonradan qanun layihəsi "yoxa çıxıb". "Artıq 11-ci ildir ki, bu qanun qəbul olunmur. Niyə biz Azərbaycanda Rəqabət Məcəlləsini qəbul etmək istəmirik? Rəqabət yaradacaq məhsulların davamlı istehsalını təmin etmək, ixracyönümlü məhsulların istehsalını təşkil etmək üçün mütləq Rəqabət Məcəlləsi qəbul edilməli, inhisarçılıq aradan qaldırılmalıdır. Rəqabət Məcəlləsi bütün dünyada qəbul olunub. Azərbaycanda hansı qüvvələr istəmir ki, Rəqabət Məcəlləsi qəbul olunsun? Xahiş edirəm ki, Rəqabət Məcəlləsi bundan sonrakı iclaslarda gündəliyə salınsın və 3-cü oxunuşda müzakirə edilsin" deyən deputat Azərbaycanda maliyyə nəzarəti haqqında qanunun qəbul olunmasının da vacibliyini dilə gətirib.

**Milli Məclisin sədri Oqtay Əsədov isə bildirib ki, Rəqabət Məcəlləsi 2 dəfə Milli Məclisdə müzakirə edilib.** "Lakin bu qanunun təşəbbüskarı var. 2008-ci ildən başlanan iqtisadi böhrandan sonra iqtisadi şərtlər də dəyişib. Buna görə də Rəqabət Məcəlləsi dəyişdirilməlidir. Bunun üzərində iş gedir. Nə zaman bu tam hazır olacaq, onda da Milli Məclisə daxil olacaq. Maliyyə nəzarəti haqqında qanun isə hazır olmalıdır ki, Milli Məclis müzakirə etsin. Hələlik qanun hazırlanır".

**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində doğrudan da maraqlı və qəribə situasiyadır:** "On ildən çoxdur ki, Rəqabət Məcəlləsi parlamentdə ilişib qalıb. Rəqabət Məcəlləsinin qəbulunun əsas məqsədi ölkədə inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi olmalıdır. Əslində hökumətin özü də maraqlı olmalıdır. Bununla bağlı dəfələrlə bəyanatlar da verilib ki, inhisarçılığa qarşı mübarizə gücləndiriləcək və bu da iqtisadiyyatın çoxşaxəli inkişaf modelinə keçməsi üçün mühüm addımlardan birinə çevriləcək. Amma nədənsə parlament Rəqabət Məcəlləsinin qəbul olunmamasında israr edir. Hələ bu günə qədər də dəfələrlə buna cəhdlər olsa da, müxtəlif deputatlar tərəfindən təkliflər səsləndirilsə də, Rəqabət Məcəlləsi nə müzakirəyə çıxarılır, nə də qəbul olunur. Təbii ki, müxtəlif maraqlar var, maraq qrupları var parlamentdə. Bu maraq qrupları ola bilər ki, öz maraqları çərçivəsində hərəkət edirlər. Rəqabət Məcəlləsinin qəbul olunması ən azından inhisarçılıqla mübarizə ilə bağlı bir hüquqi baza yaradacaq. Azərbaycanda inhisarçılıqla məşğul olan şirkətlərin olduğunu və bu şirkətlərin böyük əksəriyyətinin iri çaplı məmurlara bağlı olduğunu nəzərə alsaq, Rəqabət Məcəlləsinin qəbulu bunlara bir hüquqi problem yarada bilər. Çox güman ki, bəzi yüksək vəzifəli şəxslər və onların biznes maraqları, hətta həmin maraqları təmsil edən deputatların bir çoxu bu Rəqabət Məcəlləsinin keçməsində və qəbul olunmasında maraqlı deyillər. Bu da ümumən iqtisadiyyata və Azərbaycanın biznes mühitinə çox ciddi zərbə vurur".

❑ Röya RƏFİYEVA

# Deputat qəssabla Milli Bank sədrinin pul "razborka"sından danışdı

## Araz Əlizadə: "Elman Rüstəmov, sən dolları 78 qəpikdən satmısan, bəs niyə o qiymətlə də geri almırsan?!"

**"Azərbaycanda bank sistemi dağılıb və kredit borclarını möhtəkircəsinə geri almaq boş və mənasızdır". Bunu modern.az saytına müsahibəsində Azərbaycan Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadə deyib. Deputat Mərkəzi Bankın pul siyasətini tənqid edib və dollar kreditləri ilə bağlı problemin yaranmasında Elman Rüstəmovu ittiham edib:**




"Mənim Elman Rüstəmovla nə tanışlığım var, nə də düşmənçiliyim. Devalvasiya olanda, dollar 1 manat 5 qəpikdən 1 manat 55 qəpiyə qalxanda, bütün banklarla razılaşdırıldı ki, krediti olanlar borcunu əvvəlki məzənnə ilə ödəsinlər. Amma Elman Rüstəmov iki ayağını bir başmağa dirədi ki, bu, bank sistemini dağıdacaq. Elman Rüstəmovu başa sala bilmədik ki, bu, əksinə, bank sisteminin inkişafına kömək edəcək. Başa sala bilmədik ki, 78 qəpikdən satılan pulun əvəzini 1 manat 80 qəpikdən ödəməyi tələb edəndə bank sistemi çökəcək. Mən də Milli Məclisin iclasında dedim ki, "Moody's" Azərbaycanın kredit reytinqini aşağı salıb. Görün nə ediblər?! Heç sovet dönəmində Azərbaycanda quldur reketlər yox idi. İndi kollektor təşkilatlarını yaradırlar. Bunlar da quldur reketlərdir. Dediyim budur ki, Azərbaycanda bank sistemi dağılıb. Və kredit borclarını möhtəkircəsinə geri almaq boş və mənasızdır. Sənin əgər 10 manatın varsa, səndən 15 manat almaq ədalətsizlikdir. Bu, həm də insafsızlıqdır. Kredit nədir? Bank satır, sən də o krediti alırsan. Təsəvvür edin ki, Elman Rüstəmov 5 manata bir kilo ət alıb.




Elman Rüstəmov

İndi isə ətin qiyməti 14 manatdır. Qəssab gəlir Elman Rüstəmovun qapısını döyür və "qardaş, əlavə 9 manat da verəcəksən" deyir. Elman Rüstəmov da sual edir: "Niyə?" Qəssab da deyir ki, "mənə nə".

İndi, hörmətli Elman Rüstəmov, sən dolları 78 qəpikdən satmısan. Bəs niyə o qiymətlə də geri almırsan?! Ya da 1 manat 5 qəpikdən satmısansa, o qiymətə də geri al da. Qazaxıstanda, Çində bunu etdilər. Ölkə iqtisadiyyatı dağıldımı? Xeyr. Sizə ayrı misal çəkim. Rusiya Mərkəzi Bankının sədri Elvira Nabiullina neçə ildir ki, dünyada bir nömrəli bankir hesab olunur. Rusiya iqtisadiyyatı da neftə köklənib, Azərbaycanın da. Amma neftin qiymətləri artandan sonra Rusiyada rublun qiyməti bahalaşır.

Bizdə büdcədə neftin qiyməti 40 dollardan götürülüb. İndi isə "Azeri Light" neftinin qiyməti təxminən 55-56 dollardır. Əgər büdcədə 40 dollardan götürülübsə, biz hər bareldən təxminən 10 dollardan artıq pul götürürük. Bəs necə olur ki, manatın məzənnəsi aşağı düşür? Bunu mənə iqtisadi cəhətdən başa sala bilərmi?! Mən iqtisadçılardan bu barədə soruşuram. Cavab isə maraqlıdır: "Bilmirik".

Mən başa düşürəm ki, Çin, Yaponiya, indi də Donald Tramp istəyir ki, süni surətdə ölkələrinin valyutalarının qiymətini qaldırsın. Onlar istəyirlər ki, ixracatdan gələn gəlirlər artsın. Amma Azərbaycanın neftdən başqa ixracatı demək olar ki, yoxdur axı..."

# Ali Məhkəmə prokurorluğun protestini rədd etdi-iki bankir azadlığa buraxıldı

## "Royalbank" ASC-nin 4 saylı filialının keçmiş rəhbər şəxsləri Pərviz Vəliyev və Ruslan Abbasova şərti cəza verildi, bir nəfər isə yenə həbsdə qaldı

**Fevralın 2-də Ali Məhkəmədə lisenziyası ləğv edilmiş "Royalbank" ASC-nin 4 saylı filialının keçmiş rəhbər şəxsləri Orxan Məmmədov, Pərviz Vəliyev və Ruslan Abbasovun barələrində olan məhkəmə qərarından verilən kasasiya şikayəti və kasasiya protestinə baxılıb.**




Bu barədə "Report"a P.Vəliyevin vəkili Bəxtiyar Hacıyev məlumat verilib. Onun sözlərinə görə, məhkəmənin qərarına əsasən, prokurorun kasasiya protesti təmin edilməyib. O.Məmmədovun isə kasasiya şikayəti təmin olunmayıb.

Vəkil bildirib ki, P.Vəliyevlə R.Abbasovun barəsində Cinayət Məcəlləsinin 70-ci maddəsi tətbiq olunaraq, onlara şərti cəza verilib. Hər iki şəxs azadlığa buraxılıb.

Qeyd edək ki, "Royalbank" ASC-nin 4 saylı filialının keçmiş rəhbər şəxsləri O.Məmmədov Cinayət Məcəlləsinin (CM) 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və P.Vəliyevlə R.Abbasov isə 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham olunub.

Ötən il iyun ayının 16-da Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə O.Məmmədov 8 il 6 ay və P.Vəliyevlə R.Abbasov isə 5 il müddətinə azadlıqdan məhrum edilib. P.Vəliyev və R.Abbasov barələrində CM-in 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq olunaraq, həmin şəxslərə şərti cəza verilib. Hökmdən narazı qalan dövlət ittihamçısı apelyasiya protesti verib. Prokuror şərti cəzanın hökm etdiyi hissədən xaric edilməsini xahiş edib.

Bakı Apelyasiya Məhkəməsində hakim Rizvan Səfərovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, prokurorun apelyasiya protesti təmin edilib, birinci instansiya məhkəməsinin çıxardığı hökm dəyişdirilib. Belə ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin təqsirləndirilən P.Vəliyev və R.Abbasov barələrində çıxardığı şərti cəza ləğv edilib. Onlar 5 il müddətinə azadlıqdan məhrum edilib. Təqsirləndirilən P.Vəliyev və R.Abbasov məhkəmə zalında həbs edilib. O.Məmmədovun isə cəzası əvvəlki kimi (8 il 6 ay) qalıb.

Daha sonra P.Vəliyevin vəkili B.Hacıyev kasasiya şikayəti ilə Ali Məhkəməyə müraciət edib. Vəkil Bakı Apelyasiya Məhkəməsinin Cinayət Kollegiyasının ilkin məhkəmə baxışının 14 sentyabr 2016-ci il tarixli əsassız qərarının ləğv edilməsini və P.Vəliyev barəsində cinayət işinin məhkəmə istintaqının tam həcmində aparılmaqla davam etdirilməsini və onun barəsində şərti cəzanın təyin olunmasını istəyib.

Xatırladaq ki, Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 12 iyul 2012-ci il tarixli qərarı ilə "Royalbank" ASC-nin lisenziyası ləğv edilib.

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

**Rusiyada yaşayan məşhur azərbaycanlı biznesmen, "AzerRos"un sabiq prezidenti Söyün Sadıqovun sosial şəbəkələrdə yayılan fotoları geniş müzakirələrə səbəb olub. Tənqid və qınaqlara tuş gələn S.Sadıqov 4 günlük susqunluğunu "Yeni Müsavat"a açıqlamasında pozdu. Onunla əsas mövzudan çıxış edərək digər məsələlərlə bağlı da söhbət etdik.**



# Gənc xanımlarla fotoları yayılan Söyün Sadıqovdan ilginc açıqlamalar

## Söyün Sadıqov: "Mənimlə fotolarda görünən qəşəng xanımlar..."

***- Söyün müəllim, son günlər gənc bir xanımla yayılan fotolarınızla gündəmi zəbt etmisiniz...***

- Yəqin ki, Azərbaycanın KİV-ləri mənim üçün darıxıblar. Ona görə məni izləyirlər. Mənimlə fotolarda görünən qəşəng xanımlar çox mədəni bir zümrənin insanlarıdır. Onlar incəsənət xadimləri, modelyerlərdir. Biz o xanımlarla bir layihədə iştirak edirik. Film çəkilişinə hazırlaşırıq. Rejissor Sergey Jdanoviçin xahişi ilə müxtəlif səpkilərdə şəkillər çəkdirmişik. Filmin adı "Qoca rəssamın həyatı" olacaq. Məndən rejissor olan dostlarım xahiş etdilər ki, kiçik bir rol oynayım. Dedilər ki, xarici görünüşümə görə italiyalılara bənzəyirəm. Yeri gəlmişkən, bu filmdə Rusiyada yaşayan yaşlı bir rəssam barədə kiçik bir epizod var. Ona görə mən fotosessiyaya çəkildim. Fikir versəniz, görərsiniz ki, şəkillər köhnə şəkil qalereyasındadır. Burada heç bir biabırçılıq yoxdur.

***- Sizcə, bu fotoların yayılmasında sizi sevməyən hansısa qüvvələrin əli varmı?***

- Bilirsiniz, mən kimin xoşuna gəlirəm ya gəlmirəm, bu məni maraqlandırmır. Kim şəkillərimi Azərbaycan KİV-lərində yerləşdirib, bunu həmin jurnalistlər bilər. Ya onlardan xahiş ediblər şəkillərimi yerləşdirməyə, ya da bu, həmin jurnalistlərin öz təşəbbüsüdür. Mən və rejissor Serqey Jdanoviçin "Soyuzkino"da şəxsi studiyalarımız var. Bu yaxınlarda iki filmimiz ekranlara çıxacaq.

***- Söyün Sadıqov, deyəsən, siyasətçi olmağı aktyorluğa dəyişib...***

- Mən aktyor deyiləm, siyasətçiyəm və siyasətlə məşğulam. Şəxsi biznesim var. Bəzən qısa epizodlarda özüm çəkilirəm. Bu çox normaldır. Mən uşaqlıqdan rejissor olmağı arzulayırdım. Bu yaxınlarda bizim "Soyuzkino" Krım yarımadası haqda filmlər çəkəcək. İdeya müəllifi mənəm və bütün konsultasiyaları da özüm aparıram. "Kürən küçük filmi" də mənim ideyamdır. Film müharibə və sadiq itlərdəndir. Mən 1988-ci ildə "Mosfilm"də "Karl Marksın cavanlığı" filmində çəkilmişəm. 1987-ci ildə "Mosfilm"də Çe Gevara roluna çəkilmişəm. Filmlərdə çəkilmək siyasətlə məşğul olmağa manеə törətmir, əksinə, kömək edir. Filmlərdə epizodik rollarda çəkilmək, konsultantlıq etmək, rejissorlara və ssenaristlərə ideya vermək mənim hobbimdir.



## "Abbas Abbasov mənə maraqlı deyil"

***- Krım adını çox çəkirsiniz. Rusiyanın Krımı ilhaq etməsinə münasibətiniz?***

- Mən ümumrusiya siyasəti ilə məşğulam. Böyük siyasi mövzuların Krım tatarları və Türkiyədir. "Yandeks"də Söyün Sadıqov "Krım birliyi" yazın, bu mövzu haqqında çox məlumatlar görəcəksiz. Krım yarımadası bütün beynəlxalq normaları və BMT-nin müddəalarına uyğun olaraq Rusiyanın tərkibinə daxil oldu. Digər münaqişələrdən fərqli olaraq, o cümlədən, Dağlıq Qarabağ münaqişəsindən, Krımda heç bir etnik təmizləmə baş vermədi. Orada indi də 400 mindən çox ukraynalı yaşayır və öz dillərində danışırlar. Krımın Ukraynadan ayrılmasını Amerika ilə Avropa Birliyi provokasiya etdi.

***- Siyasi mövzularınızdan biri kimi Türkiyəni qeyd etdiniz. Rusiya-Türkiyə yaxınlaşmasını necə qiymətləndirirsiz?***

- Türkiyə prezidenti Ərdoğan və Rusiya prezidenti Putin çox müdriklik etdilər. Keçmiş inciklikləri unudub münasibətləri düzəltdilər. Rusiya anladı ki, Türkiyənin də Suriya və Yaxın Şərqdə milli maraqları var və hər məsələ üzrə anlaşdılar. Ona görə də Suriyada ümumi uğur əldə etdilər. Türkiyə-Rusiya müttəfiqliyi Avropa Birliyi-Türkiyə müttəfiqliyindən daha səmərəlidir. Türkiyə ilə Rusiyanın yaxşı münasibətləri Amerika ilə Avropa Birliyini qane etmir. Ermənistanı da eynən. Çətin sınaqlardan sonra fikirləşirəm ki, Ərdoğanla Putin anladı ki, iqtisadi böhrandan çıxmaq və hakimiyyətdə qalmaq üçün onlar birlikdə olmalıdırlar.

***- Donald Trampın prezident seçilməsində Rusiyanın əlinin olduğu deyilir. ABŞ-ın yeni rəhbəri Rusiya ilə münasibətləri yaxşılaşdıra biləcəkmi?***

- Trampın iqtidara gəlməsi ciddi heç nəyi dəyişmədi. Çünki Amerika sistemi elə qurulub ki, növbə ilə hakimiyyətə demokratlarla respublikaçılar gəlir. Trampın gəlişi Amerika-Rusiya münasibətlərində heç nəyi dəyişməyəcək. Amerikanın özündə dünyanın hegemonu olmağı hiss etmək siyasəti var. Və bütün problemləri prezident həll etmir, Konqres həll edir. Ona görə də Rusiya Trampa və yaxud kiməsə ümid etməyəcək. Rusiyanın öz milli maraqları var.

***- Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən prosesləri necə dəyərləndirirsiz?***

- Təəssüf ki, Qarabağ problemini regionun oyunçuları həll etmir. Azərbaycan və Ermənistan xalqları hələ bu oyunçuların əsiri çox olacaqlar. Son dövrlərdə Qarabağ erməniləri başa düşdülər ki, onları 1990-94-cü illərdə aldadıblar və onlar yavaş-yavaş Bakıya meyllənirlər. Bu yaxşı haldır.

***- Gərgin münasibətləriniz olan Abbas Abbasovla ələqələriniz varmı?***

- Abbas Abbasovu bir ildən çoxdur görmürəm. Və o mənə maraqlı deyil.

***- Hazırda Rusiyada yaşayan Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovla necə, münasibətiniz varmı?***

- Rüstəm İbrahimbəyova böyük hörmətim var. O, millətin simasıdır. İncəsənət adamları daim yaşayırlar, əsirlər keçib, Nizami Gəncəvi yaşayır, eləcə də Rüstəm İbrahimbəyov yaşayacaq və gələcək nəsillər onunla fəxr edəcək. Necə deyərlər, Rüstəm İbrahimbəyov kimi incəsənət adamlarını qorumaq, qiymətləndirmək, sevmək lazımdır. Rüstəm İbrahimbəyovlar nə qədər çoxdursa, o qədər millətimiz dünyada güclü və tanınmış olacaq.

***- Azərbaycandakı vəziyyəti izləyirsiniz?***

- Hər bir ölkə üçün iqtisadi böhran təhlükədir və bu problemi həll etmək lazımdır. Əks halda, cəmiyyət gərginləşəcək və bu da hakimiyyətə problemlər yaradacaq. Mən əminəm ki, Azərbaycanın daxili potensialı var ki, iqtisadi böhranın öhdəsindən gəlsin. İndi biznesi maraqlandırmaq lazımdır ki, investisiyalar gəlsin . Hakimiyyət də biznesmen investorlarının hüquqlarını qorumalıdır və həmçinin həvəsləndirməlidir.

❑ **Cavanşir ABBASLI**

# Bir impulsiv digər impulsivi görəndə...



**Samir SARI**

**Amerikalılar, eləcə də avropalılar, hətta artıq bütün dünya ictimaiyyəti ABŞ-ın yeni prezidenti Donald Trampın barəsində gerçəkləyiblər, bu gün-sabah adamı rəsmən ağıl xəstəsi elan edəcəklər.**

Hələ seçki kampaniyası zamanı bir çoxları deyirdi ki, bu adam nevrozdur, impulsivdir, sözünün dalını, qabağını bilmir, ondan prezident olmaz.

Ancaq prezidentliyə namizəd haqqında belə diaqnoz qoyanların sözünü qəribçiliyə salan çox idi, deyirdilər, bu, olan şeydir, rəqibə qarşı aparılan qara piardan başqa bir şey deyil.

Seçki kampaniyalarında qaydadır axı, rəqibə hər şey deyirlər, araşdırıb, axtarıb, tapırlar, namizəd uşaq vaxtı sinif yoldaşı qızın saçından dartıbsa, "qadın düşməni" elan edirlər, gəncliyində tələbə yoldaşı oğlanla qol-boyun şəkil çəkdiribsə, adını cinsi azlığa çıxarırlar (hərçənd bu, artıq ciddi qüsur sayılmır), hansısa teledebatda möhkəm hirslənibsə, "emosionaldır, hisslərini cilovlaya bilmir" deyə gözdən salmağa çalışırlar.

Yazıq Trampa da çox şey deyirdilər, qadınlara qarşı düşkün olmasından tutmuş ta əsəbi və dalaşqan olmasına, maliyyə maxinasiyaları, biznes fırıldaqları etməsinə, iqrçiliyə meylinə qədər.

Amma bu caydaq, çalbaş, simpatik kişi gözəl Amerika xalqının qəlbini necə ofsunlamışdısa, xalq deyirdi, qırxdır, bir əskik deyil, səsimiz Trampındır. Elə də oldu. O qədər qara piar söhbətləri puç oldu getdi.

Budur, ABŞ-da siyasi ehtiraslar soyuyub, seçki gərginliyi yox olub, əvəzində dünya, o cümlədən ABŞ ictimaiyyəti əndişəlidir. İndi Trampın ağıl-kamalı, ruhi vəziyyəti barədə siyasi rəqibləri danışmır, sırf bu işin mütəxəssisləri danışır.

Məsələn, bəzi psixiatrlar hesab edirlər ki, Trampda "yüksək lovğalıq, təhqirlərə və tənqidlərə hiperhəssaslıq və impulsivlik, habelə fantaziya və reallıq arasında fərqi müəyyən edə bilməmək" kimi xüsusiyyətlər müşahidə olunur.

Əslində bunu hamı müşahidə edir, amma biz o terminləri bilmirik. İnauqurasiya günü Trampın CNN-in müxbiri ilə davranışını biz "adi təpinmə" adlandırırıq, amma həkimlər deyir, bu, tənqidə qarşı hiperhəssaslıq və impulsivlikdir.

Hələ prezidentə qarşı bir "narsissizm" diaqnozu da qoyublar. Guya ki, adam özünə vurğundur, güzgüyə baxanda hesab edir ki, dünyada bundan yaraşıqlı kişi yoxdur. Düzdür, dünyada elə bir kişi (və ya qadın) yoxdur ki, güzgüyə baxanda "ay idbar, nə baxırsan, meymuna oxşayırsan" deyə düşünsün, amma 70 yaşlı kişi üçün "narsissizm" ittihamı irəli sürürlərsə, bu, artıq ciddi şeydir, ağılın qıvraqlığının göstəricisidir.

Əslində əlində hakimiyyəti, böyük vəzifəsi, milyardları olmayan adamın əsəbi, ağıldankəm, səy olmasının dünya ictimaiyyətinə elə bir təhlükəsi, təhdidi yoxdur. O adam olsa-olsa ailəsinin, qonşularının gününü qara edə bilər. Amma bir ölkənin başçısı, xüsusilə də böyük dövlətin rəhbəri hiperhəssas və impulsivdirsə, vay o ölkənin vətəndaşlarının və qonşularının gününə.

Son illərdə Türkiyədə çəkilən seriallardan öyrənrik ki, heç demə, tərifli Osmanlı xanədanlığının sultanlarından bir neçəsinin başı əməlli-başlı xarab olub, sarsaq qərarlar verib, saray əhlinin və rəiyyətin başına oyun açıblar.

Tərs kimi, balaca adamlar dəli olanda əl-qollarını sarıyıb bir hücrəyə salmaq olursa, Osmanlı xanədanı gicqulu padşahın qolunu sarıyanacan, dəlinin biri olduğunu sübut edənəcən nə qədər adamın kəlləsi gedib. Kimsə deyə bilər ki, bəlkə də o vaxt adı dəliyə çıxarılmış gənc sultanlara qarşı da "qara piar" aparılb. Amma tarixi məxəzlər, şahidlər var, təhqiqatçılar rəsmən təsdiqləyiblər ki, Mustafa və İbrahim tamamilə ağıldankəm olublar.

Tramp isə göz önündədir, hər gün əmrlər, sərəncamlar, fərmanlar verir, Tvitterdə statuslar yazır, çıxışlar edir, açıqlamalar verir.

O danışdıqca amerikalılar və dünya ictimaiyyəti qorxur. Çünki əlində nüvə bombalarının açar-kilidinin daşındığı çamadan var. Hələ o, vəzifəsinə başlayarkən and içəndə məşhur adamlardan biri demişdi ki, bu adama nüvə çamadanını vermək olmaz.

Tramp hakimiyyətə gələnə qədər dünya mediası ən çox Putindən yazırdı, onun ruhi tarazlığının, emosional durumunun söhbətini edirdi, hazırda isə Putin qalıb qıraqda, hamı Trampdan yazır.

Bu xüsusda ataların dediyi kəlamlardan biri də təxminən belədir: hiperhəssas və impulsiv başqa bir hiperhəssas və impulsivi görəndə nüvə çamadanını dalında gizləyər.

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

# Siyavuş Novruzova gecə gələn telefon zəngləri-onları necə tapmalı?

**Milli Məclisin fevralın 1-də keçirilən iclasında YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov ona hər axşam xarici ölkələrdən müxtəlif nömrələrdən zənglər gəldiyini bildirib. S.Novruzov açıq şəkildə ifadə etməsə də, onun narahatlığından belə təəssürat yaranıb ki, deputata xaricdən, özü də axşamlar edilən zənglər heç də xoş əhval yaradan zənglər deyil. S.Novruzov zəng edənlərin onu təhdidmi, təhqirmi edib-etmədiyi haqda açıqlama verməyib. Sadəcə, fikrinə davam edərək bildirib ki, bu vəziyyət "ərəb baharı" dövründə də olub: "Bu, bir yoxlanışdır. Ona görə də Ziyafət müəllimdən xahiş edək, informasiya təhlükəsizliyi ilə bağlı hansı addımı atmaq olar ki, bu, dayansın?"**

## İKT mütəxəssisi **Osman Gündüz:** "Dövlət Təhlükəsizlik Xidməti və digər müvafiq xüsusi xidmət orqanları deputata xaricdən gələn zəngləri nəzarətə götürüb hardan gəldiyini müəyyənləşdirə bilər, amma..."

Siyavuş Novruzova xaricdən kimlərin zəng etdiyi və zəng edib nə dediyini dəqiqləşdirmək üçün onu aradıq. Zənglərimizə köməkçisi cavab verdi və deputatın iclasda olduğu səbəbindən hər hansı bir açıqlama verə bilməyəcəyini dedi.

Məsələ ilə bağlı İKT eksperti ilə danışdıq. **"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz** "Yeni Müsavat"a bildirdi ki, kənar müdaxilələr yoxdursa, xaricdən gələn telefon zənglərinə nəzarət mümkündür. Mobil operatorlar, telekommunikasiya operatorları, ümumiyyətlə, telekommunikasiya bazarında beynəlxalq rabitə xidməti göstərən qurumlar qanunvericiliklə müəyyən şərtləri həyata keçirməlidirlər: "Yeni onlar xidmətə başlamazdan öncə lisenziyanı alanda bəlli şərtlər olur. Həmin şərtlərdə nəzərdə tutulur ki, xüsusi xidməti həyata keçirən, təhlükəsizliyi həyata keçirən qurumlar istənilən vaxt operatorlardan istənilən adam haqqında informasiya əldə etmək imkanına malik olmalıdır. Operatorlar bu şərtə əməl etməyə borcludurlar.

Əgər sistem lisenziya şərtlərinə uyğun fəaliyyət göstərirsə, deməli, istər Siyavuş Novruzova, istərsə də istənilən vətəndaşa xaricdən edilən zəngləri nəzarətə götürmək mümkündür. Son dövrlərdə problem ondan ibarətdir ki, dünya qloballaşdığından və telefon danışıqları internet üzərindən keçdiyindən və skayp, vatsapp və sair xidmət vasitələrindən də istifadə olunaraq zənglər edildiyindən buradakı nəzarət xeyli çətinləşib. Adi qaydada telefonla zəngdirsə, onu nəzarətə götürməkdə problem yoxdur, amma adını sadaladığım



yeni internet resursları üzərindən zənglər olursa, bu zaman nəzarət çətinləşir. Belə halda nəzarət üçün əlavə resurslar olmalıdır, əlavə informasiya sistemləri qurulmalıdır və sair.

Daha bir problem odur ki, son dövrlərdə "beynəlxalq traffikin oğurlanması" anlayışı meydana gəlib. Yəni tutaq ki, Azərbaycana beynəlxalq zəng gəlir, o zəng əvvəlki kimi klassik qaydada telekommunikasiya operatorlarının üzərindən gəlmir, əlavə müxtəlif şirkətlərin traffikini oğurlayıb beynəlxalq zəngləri oradan yönəldirlər. Belə halda isə nəzarət eləmək mümkünsüzdür".

**Ekspert vurğuladı ki, Dövlət Təhlükəsizlik Xidməti və digər müvafiq xüsusi xidmət orqanları deputata xaricdən gələn zəngləri nəzarətə götürüb hardan gəldiyini müəyyənləşdirə bilər:** "Əvvəlki köhnə qaydada olan zənglərdirsə, bunu nəzarətə götürüb müəyyənləşdirmək çox asandır. Lakin zənglər qeyd etdiyimi internet resursları-skayp, vatsapp və bu kimi resurslar vasitəsilədirsə, o zaman nəzarətə götürüb müəyyən etmək çətinləşir. Əgər zənglər traffikin oğurlanması hesabına edilən zənglərdirsə, onu nəzarətə götürüb hardan olduğunu müəyyən etmək isə demək olar ki, mümkünsüzdür".

❑ **Etibar SEYİDAĞA**

# QHT-lərin Bakıda "şəffaf parçalanması"

## **Sabit Bağırov:** "Bizim dostlardan bəziləri vətəndaş cəmiyyətinin digər problemlərinin də MSŞT çərçivəsində həllinə çalışır"

**Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü (MSŞT) üzrə beynəlxalq İdarə Heyətinin sədri İsveçin keçmiş baş naziri Fredrik Reinfeldt və MSŞT üzrə beynəlxalq katibliyin rəhbəri Yonas Moberq Bakıda işgüzar səfərdə olublar. Səfər çərçivəsində MSŞT sədri və katibliyin rəhbəri Azərbaycanın dövlət başçısı başda olmaqla, bir çox mühüm şəxslərlə görüşüblər. Bu səfərdən yerli vətəndaş cəmiyyətinin gözləntiləri çoxdur.**



**Ekspert Qubad İbadoğlu** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, hökumətin vətəndaş cəmiyyəti ilə bağlı problemləri qalır: "Problem tam həll olunub, yaxud da hökumət problemlərin həllinə çalışmır kimi fikirləri bölüşmürəm. Hesab edirəm ki, müəyyən addımlar var. Yəni bu son dövrlər qaydalarla bağlı dəyişikliklər göz qabağındadır. Bu qaydalar İdarə Heyətinin Astana toplantısında qəbul etdiyi islahedici tədbirlər planının tələblərinə tam cavab vermir. Orada, ümumiyyətlə, qrantların qeydiyyatının, bütövlükdə götürəndə, həm də xarici donorların qeydiyyatının ləğvi nəzərdə tutulub. Eyni zamanda reyestrdən çıxarışın ləğvi nəzərə tutulub. Burada qərarlardan sonra müəyyən tələblərin siyahısının azaldılması prosesi var, nəzərə alınıb. Mərkəzdən prosesin idarə olunması nəzərə alınıb. Yenə də həm donorlar üçün, həm də qrantlar qeydiyyat problemi qüvvəsini saxlayır. Təbii ki, proses davam etməlidir. Bu istiqamətdə təkmilləşmə getməlidir. Bizim növbəti İdarə Heyətinə kimi bir aydan çox vaxtımız var. Hesab edirəm ki, az müddət deyil. Bu istiqamətdə əlavə addımlar atılmalıdır ki, Azərbaycan orada fəaliyyətinin dayandırılması təhlükəsi ilə qarşılaşmasın".

Qeyd edək ki, MSŞA QHT Koalisiyası mətbuat üçün açıqlama yayaraq Bakıdakı toplantı haqda da məlumat verib. Toplantıda çıxış edən MSŞA Koalisiyasının üzvləri, hüquqşünaslar Akif Qurbanov və Hafiz Həsənli bildiriblər ki, Nazirlər Kabinetinin 11 yanvar 2017-ci il tarixli "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması" və 24 yanvar 2017-ci il tarixli "Xarici donorlar tərəfindən Azərbaycan Respublikası ərazisində qrant vermək hüququnun əldə edilməsi" Qaydalarında dəyişikliklər edilməsi barədə qərarları qanunlardan üstün hüquqi qüvvəyə malik olmadığına görə, "Qrant haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda məhdudlaşdırıcı hallar aradan qaldırılmayacağı halda hüquqi və praktik vəziyyətin dəyişməsindən danışmaq mümkün deyildir. Onlar qeyd ediblər ki, baş verən dəyişikliklər islahedici tədbirlər planında nəzərdə tutulan fəaliyyətlərin icrasını təmin etmir.

Çıxışçılar bildiriblər ki, təxminən 1 il 6 ay bundan əvvəl MSŞT-nin keçmiş sədri Kleyr Şortla görüşdə prezident problemlərin həll ediləcəyinə söz versə də, problemlər indiyədək qalmaqdadır.

Çıxış edən Koalisiya Şurası və Çoxtərəfli Qrup üzvü Oqtay Gülalıyev bildirib ki, qanunvericiliklə yanaşı, hakimiyyətin vətəndaş cəmiyyətinə baxışı dəyişməlidir. Eyni zamanda qeyd edib ki, Koalisiyanın keçmiş Şura üzvü Fuad Qəhrəmanlı facebook sosial şəbəkəsində yazdığı fikirlərinə görə 10 il müddətinə azadlıqdan məhrum olunub. Koalisiyanın daha bir üzvü Qarabağ qazisi, 2-ci qrup əlil Asif Yusifli də 2 ildən çoxdur ki, qanunsuz həbs həyatı yaşayır. Çıxışçı Təbii Resursların İdarəedilməsi İnstitutunun Müşahidə Şurasının üzvü İlqar Məmmədovun 4 ilə yaxındır ki, həbsdə olduğunu da xatırladıb.

**Azərbaycanın MSŞT-də statusunun bərpası bir aya müzakirəyə çıxarılmalıdır. Əksər ekspertlər ölkədəki durumun "nikbin düşünməyə" əsas vermədiyini bildirirlər.Görüşün başqa bir iştirakçısı, Mədən Sənayesində Şəffaflığın Artırılması üzrə Azərbaycan QHT Koalisiyasının üzvü Sabit Bağırov ümidini parlamentin yaz sessiyasına bağlayıb. O, AzadlıqRadiosuna bildirib ki, koalisiyada iki fərqli fikir var:** "Problemlərin həllinə çalışılır. Nazirlər Kabineti yanvarda iki qərar qəbul edib. O qərarlarda prosedurlara dair xeyli sadələşdirmələr nəzərdə tutulur, amma problemi kökündən çözmək üçün qanunvericilikdə dəyişikliklər edilməlidir. MSŞT-nin öz standartları var. Keçən il qəbul edilən standartda vətəndaş cəmiyyətinə dair xüsusi qeydlər var. Orda açıq göstərilir ki, MSŞT prosesində iştirak edən vətəndaş cəmiyyəti qurumları məhz Təşəbbüsün problemləri ilə əlaqədar məsələlərdə ifadə azadlığına malikdirlər. Təəssüflər olsun ki, bizim dostlardan bəziləri vətəndaş cəmiyyətinin digər problemlərinin də MSŞT çərçivəsində həllinə çalışır. Bu da düzgün deyil... Hər şeyin öz yeri var. Siyasətlə məşğul olmağa siyasi partiyalar var. Bu, Təşəbbüsün standartında açıq-aydın yazılıb. Bu gün sədr bir daha bunu təkrar etsə də, bəzi dostlarımız bunu qəbul etmək istəmir. Ona görə də problemlər yaranır".

"Açıq Hökumət Təşəbbüsü" 2011-ci ildə BMT Baş Assambleyasının 66-cı toplantısında qəbul edilib. Hazırda adıçəkilən sənədi 70 civarında ölkə imzalayıb. Bu sənədə ilkin qoşulmaq istəyənlər sırasında olan Azərbaycan 2012-ci ildə Təşəbbüsə qoşulub. 2016-cı ilin mayında Açıq Hökumət Tərəfdaşlığının Rəhbər Komitəsi Azərbaycanın bu qurumdakı statusunu tamhüquqlu üzvlükdən qeyri-aktiv ölkə statusuna endirib. Buna səbəb kimi Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə yaradılmış məhdudiyyətlər, bütün vətəndaş cəmiyyəti spektrini əhatə edən platformanın olmaması göstərilib.

❑ **Röya RƏFİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

# Rusiyanın yeni sülh təşəbbüsü, yoxsa Kremlin işğalçını xilas planı?

## Politoloq: "Rusiya aşkarcasına Azərbaycanla Ermənistan arasında ədalətli sülh istəmir"

**Aprel müharibəsindən sonra təkbaşına vasitəçilik missiyasını həyata keçirən Kreml yenidən Azərbaycan və Ermənistan rəhbərlərini bir araya gətirməyə çalışır. Bugünlərdə Azərbaycan XİN başçısı Elmar Məmmədyarov da mətbuata açıqlamasında rəsmi Moskvanın nazirləri bir araya gətirmək niyyətində olduğunu təsdiqləyib.**



Düzdür, nazir görüş perspektivindən pessimist danışıb. Amma onu da qeyd edib ki, rəsmi Bakı Ermənistandan fərqli olaraq, danışıqlara hazırdır. Bu şərtlə ki, aparılan müzakirələr nəticə versin. Bir neçə gün əvvəl Rusiyaya səfər edən E.Məmmədyarovun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Rusiya xarici işlər nazirinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təklif edilsə də, bu, baş tutmayıb. XİN başçısı bildirib ki, Azərbaycan belə görüşün keçirilməsinə razıdır, O, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin dörd qətnaməsinin icra olunmamış qaldığını xatırladıb. Nazirin sözləri ilə desək, BMT qətnamələri Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını xahiş yox, tələb edir.

Ancaq Ermənistan hələ ki nə xahişə, nə də tələbə əməl edir. Hətta son günlərdə düşmən təmas xəttində təxribatları yenidən davam etirməyə başlayıb. Təxribat nəticəsində isə bir əsgərimiz yaralanıb. İrəvan bir qayda olaraq növbəti danışıqlar ərəfəsində güc nümayişindən istifadəyə üstünlük verir.

Qeyd edək ki, hələ ötən ilin sonlarında ATƏT-ə sədrlik edən Almaniya iki ölkənin nazirlərini bir araya gətirməyə çalışmışdı, ancaq Sankt-Peterburq və Vyana görüşündən sonra sayca üçüncü görüşü reallaşdırmaq hələ ki mümkün olmayıb. Rusiya növbəti görüşün keçirilməsinə nail olarsa, bu, sülh prosesinə təkan verə bilərmi? Ümumiyyətlə, Rusiya danışıqları dalandan çıxarmağa və prezidentlərin görüşünün razılaşdırılmasına nail olacaqmı?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin mümkün görüşündən heç nə gözləmədiyini dedi:** "Çünki birincisi, Ermənistan girovlarımızı geri qaytarmır və bununla gərginliyin azalmasının qarşısını alır. İkincisi, Məmmədyarov açıq ifadə etdi ki, Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşdən narazı qayıdıb. Xarici işlər nazirlərinin mümkün görüşü real nəticə verməyəcəksə, prezidentlərin də yaxın müddətdə görüşünə ehtiyac qalmayacaq. Əksinə, vəziyyətin getdikcə gərginləşəcəyini proqnozlaşdırıram. Əgər Ermənistan Dağlıq Qarabağda girov saxladığı iki soydaşımızı və hərbçimizin nəşini geri qaytararsa, bu, vəziyyəti xeyli sabitləşdirərdi".

**Siyasi təhlilçiyə görə, əgər Ermənistan hakimiyyəti bu addımı atmırsa, deməli, qəsdən gərginliyin artmasında maraqlıdır:** "İşğalçı ölkədə düşünürlər ki, yaranan gərginlikdə Azərbaycanı Rusiya ilə toqquşdura biləcəklər. "Gallup International" tərəfindən aparılan sorğu zamanı məlum oldu ki, Azərbaycan vətəndaşlarının 85 faizi öz vətəni uğrunda döyüşməyə hazırdır. Sorğu dünyanın 64 ölkəsində keçirilib. Sorğuya hər ölkədən 1000 nəfər cəlb edilib. Müqayisə üçün deyək ki, Ermənistanda 72 faiz öz ölkəsi üçün döyüşməyə hazırdır. Əgər sual belə qoyulsaydı ki, nə qədər Ermənistan vətəndaşı Dağlıq Qarabağ uğrunda döyüşməyə hazırdır, nəticə daha aşağı rəqəmlə ifadə olunardı. Bu rəqəmlər Ermənistan hakimiyyətini ciddi düşündürməlidir".

**Politoloq hesab edir ki, Ermənistanın indiki mövqeyi həm də Rusiyanın siyasətindən qidalanır:** "Kreml açıq-aşkar Azərbaycanla Ermənistan arasında ədalətli sülh istəmir. Əks halda, nazir Elmar Məmmədyarovun son müsahibəsində dediyi kimi, Kreml çoxdan rəsmi İrəvana təsir edib sülhə nail olardı. Rusiyanın hazırkı siyasəti 2017-ci ildə də davam edəcək. Rusiya Ermənistanı hərbi-nöqteyi nəzərdən gücləndirəcək. Rəsmi Bakı artıq Rusiyanın vasitəçiliyinin nəticə verməyəcəyini anlayıb. Digər tərəfdən, Rusiya Azərbaycan torpaqlarının güc yolu ilə geri qaytarılmasının da əleyhinədir. Belə vəziyyətdə rəsmi Bakı 2017-ci il ərzində cəbhə bölgəsindəki gərginliyin azalmasına imkan verməyəcək".

**Rusiya XİN başçısı Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili məsələsi deyil" məzmunlu bəyanatından sonra Moskvanın tənzimlənmə prosesində ədalətli rol oynayacağı o qədər də real görünmür. Üstəlik, hazırda dünyanın güc mərkəzlərinin prioritetləri sırasında Qarabağ məsələsi öndə olmadığı üçün nikbinliyə əsas qalmır. İndiki situasiyada beynəlxalq aləm, sadəcə, böyük savaşa yol verməməyə çalışır ki, bu da Azərbaycanın maraqlarına uyğun deyil. Çünki düşmən fürsət qazanaraq mövqelərini gücləndirir, ərazilərimizdə qanunsuz məskunlaşma siyasətini davam etdirir. Ona görə də Azərbaycanın hərb yoluna əl atmasından başqa çarəsi qalmır. Elə parlamentin ötən iclasında da deputatlar işğalçının atəşkəsi pozması halında ona sarsıdıcı zərbə vurulması üçün Müdafiə Nazirliyinə müraciət ediblər. Bu müraciətdən dərhal sonra düşmən növbəti təxribata əl atdı. Şübhəsiz ki, prosesi ciddi şəkildə izləyən Rusiya gərginliyin artmaması üçün növbəti çağırışda bulunacaq. Erməniləri yeni fəlakətlərdən qorumaq üçün...

# Karapetyan Sərkisyanı Qarabağla bağlı proseslərdən kənarlaşdıracaq - ehtimal

## Elçin Mirzəbəyli: "İşğalçı Qarabağ müstəvisində manevr və manipulyasiya imkanlarını genişləndirmək, münaqişənin həllini uzatmaq üçün zaman əldə edə bilər"

**"Əgər Ermənistanda keçirilən parlament seçkiləri Serj Sərkisyanın ssenarisi üzrə baş tutarsa, o zaman bu, sadəcə, işğalçı ölkənin mövcud hakimiyyətinin bir formadan başqa bir formaya transformasiya olunması anlamına gələcək. Yəni sadəcə, toplananların yeri dəyişiləcək". Politoloq Elçin Mirzəbəyli bunu "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi.**

Qeyd edək ki, işğalçı ölkədəki parlament seçkilərindən sonra əsas səlahiyyətlər baş nazirə keçəcək. Moskva səfərindən sonra artıq baş nazir Karen Karapetyan Sərkisyana iradə nümayiş etdirməyə başlayıb. Düzdür, ölkə prezidenti baş naziri zərərsizləşdirmək üçün bir sıra addımlar atıb. Ancaq hesab olunur ki, Kremlin dəstəyini qazanan Karapetyan prezidentliyinin sonuncu ilini yaşayan Sərkisyana vaxtından qabaq yerini göstərməyə hazırlaşır. Yaxın zamanlarda Ermənistan hökumətinin tərkibində növbəti dəyişikliklərin olacağı xəbəri yayılıb. Baş nazirin hətta özünün təyin etdiyi məmurlara da "rəhm etməyəcəyi" bildirilir.

Göründüyü kimi, baş nazir özünə komanda yığır. Proseslərin növbəti mərhələsində "ofsayd"da qalan Serj Sərkisyanın Qarabağ danışıqlarından da kənarlaşdırıla biləcəyi ehtimalı səslənir. Onsuz da qeyri-konstruktiv mövqeli qatil prezidentin nə ölkə daxilində normal imici var, nə də Azərbaycan tərəfdən ciddi fiqur sayılır. Üstəlik, aprel döyüşlərindən sonra Sərkisyanın Rusiyanı Merkelə satmasını da Kremldə unutmayıblar. Bu mənada Karapetyanın Qarabağ danışıqlarında təşəbbüsü ələ ala biləcəyini söyləyənlər hardasa haqlıdır.

**E.Mirzəbəyli də təsdiqləyir ki, proseslərin Sərkisyanın ssenarisi üzrə inkişaf edib-etməyəcəyi nəinki Ermənistanın indiki prezidentindən, hətta bu ölkənin siyasi partiyalarından və vətəndaşlarından da asılı deyil:** "Ermənistanda keçirilən bütün seçkilərin nəticələri Moskvada müəyyənləşdirilir, Ermənistan siyasətçiləri isə Kremlə yaxın olmaq uğrunda mübarizə aparırlar. İndiki şəraitdə çox şey Moskvanın təlimatından, yaxın və uzaq hədəflərə hesablanmış ssenarilərindən, Ermənistanın regiondakı gələcək rolu ilə bağlı prioritetlərindən asılıdır. BMT-nin rəsmi statistikasına görə, 1992-ci ildən etibarən Ermənistan əhalisinin 1/3 hissəsindən çoxu ölkəni həmişəlik tərk edib. Nəzərə çatdırım ki, bu, 2016-cı ilə qədər olan göstəricidir. Müxtəlif mənbələrdə 2016-cı ildə, xüsusilə də aprel döyüşlərindən sonra Ermənistanı həmişəlik tərk edənlərin sayının 60-100 min nəfər arasında olduğu bildirilir. Qeyd edim ki, ölkəni tərk edənlər əsasən gənclər, ictimai-siyasi həyatda fəal olan, bir çox hallarda isə rejimin siyasətini qəbul etməyən insanlardır. Çox güman ki, demoqrafik vəziyyət də seçki prosesinə öz təsirini göstərəcək".



Elçin Mirzəbəyli

**Lakin ekspert deyir ki, bununla yanaşı, həm seçki öncəsi, həm də sonrası qarşıdurma ehtimalı da istisna olunmur:** "Aprel döyüşlərindən sonra Serj Sərkisyanın Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanla görüşdüyünü və bu görüşdən sonra ikincinin rəhbərlik etdiyi Erməni Milli Konqresinin seçkilərə "Sülh və yaxın qonşuluq" şüarı ilə getdiyini də nəzərə alsaq, bir sıra maraqlı ehtimallar da irəli sürə bilərik. Məsələn, ola bilsin ki, hər iki Qarabağ canisi arasında müəyyən həm sülh, həm də müharibə tərəfdarlarının nəzarətdə saxlanılması və idarə etməsi üçün müəyyən razılaşma olub. Bu razılaşma əsasında Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi hansısa səlahiyyətlər də əldə edə bilər. Bununla da Dağlıq Qarabağ müstəvisində manevr və manipulyasiya imkanlarını genişləndirmək, münaqişənin həllini uzadılması üçün zaman əldə edə bilərlər. Təsəvvür edin, sülh və müharibə tərəfdarlarının qarşıdurması parlament müstəvisində keçirilir, bu müstəvidə müxtəlif qanun layihələri hazırlanıb komitələrə təqdim olunur, komitələrdə uzun müddət müzakirələr aparılır, sonra plenar iclasa çıxarılır, plenar iclasda səsvermə baş tutmur, yaxud yenidən işlənilməsi üçün yenidən komitələrə qaytarılır və s. Yəni ötür-ötür oyunu başlayır".

**Politoloq bildirdi ki, eyni yanaşma sülh sazişi ilə bağlı məsələ gündəmə gələndə də baş verə bilər:** "Nəticədə bir neçə il də parlament şoularına həsr olunar. Təbii ki, bütün bunlar ehtimallardır, amma reallaşması mümkün olan ehtimallardır. Bu baxımdan, Sərkisyanın prosesdən kənarlaşdırılması, yaxud bu uşaq qatilinin, Xocalı canisinin yenə də aparıcı mövqedə dayanması son nəticədə rəsmi İrəvanın Qarabağ məsələsində əvvəlki mövqelərindən geri çəkilməsi anlamına gəlməməlidir".

**E.Mirzəbəylinin sözlərinə görə, Ermənistanın işğalçılıq siyasətinə danışıqlar yolu ilə yalnız bir halda son qoyula bilər - Rusiya bunu istəsə:** "Rusiya isə hələ istəkli görünmür. Əksinə, Lavrovun son açıqlaması və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun proses barədə səsləndirdiyi fikirlər Moskvanın münaqişənin həlli istiqamətində real addımlar atmaq niyyətində olmadığını nümayiş etdirir. Hətta xarici işlər nazirlərinin görüşü də Rusiyanın aparıcı mövqedə dayandığı prosesdə irəliləyişin olmayacağı təəssüratını yaradır. Hazırda görünən odur ki, Moskva status-kvonun qorunub saxlanılmasında maraqlı deyil. Şübhəsiz, Rusiyanın maraqlı olmadığı bir məsələdə Ermənistan, ümumiyyətlə, maraqlı ola bilməz. Qənaətimə görə, Moskva münaqişənin həlli üçün şərtlərin daha da ağırlaşmasını, hətta çıxılmaz bir vəziyyətə düşməsini gözləyir. Məqsəd isə həmin o çıxılmaz vəziyyətdə yalnız Rusiyanın şərtlərinin qəbul olunması üçün zəmin yaratmaqdan ibarətdir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 24 (6638) 3 fevral 2017

# Qar və buzda yıxılmamaq üçün bu məsləhətləri oxuyun



**Fevralın 1-də və 2-də Azərbaycana yağan güclü qar tək avtomobillərin deyil, vətəndaşların da hərəkətində məhdudiyyət yaradıb. Artıq iki gün ərzində Bakıda 42 nəfər qarda sürüşərək xəsarət alıb, bir nəfər isə ölüb.**

Qarın mikrobları öldürüb ətrafı bütünlüklə ağa bürüməsi ilə insanda xoşbəxtlik hormonu və adrenalin ifrazı artır. Əlbəttə ki, evdə oturub qarı izləmək gözəldir. Ancaq işə, dərsə getməli olanlar üçün qarda gəzmək xeyli çətin olur. Gərək hər addımbaşı özünü yıxılmaqdan qoruyasan. Amma necə?

Ailem.az qarda yıxılmamaq üçün məsləhətlər təqdim edir.

- Əgər varsa, mismarlı ayaqqabı, ya da ayaqqabının üzərindən corab geyinin.
- Addımlarınızı sürətli, kiçik-kiçik atın.
- Ayağınızı öncə burnu, sonra dabanı ilə yerə basın.
- Qarın əzildiyi və ya üzərindən çox gedildiyi yerlərdən keçməyin.
- Yeriyərkən bəzi yerlərdən tutun.
- Yanınızdakı dostunuzla qol-qola girməyin.
- Yeriyərkən ayağınızın yerlə tam təmasını kəsməyin.
- Yıxıldınızsa, o dəqiqə qalxmayın. Zərər görmüş ola bilərsiz.
- Bel çantası istifadə edin. Əlləriniz boş olsun.
- Şalvar yerişi əngəlləyəcək qədər gen, uzun olmamalıdır. Çalışın qalın olsun.
- Paltonun çox uzun olmaması yaxşıdır.
- Yıxılarkən əl və qollar dəstək rolu yerinə yetirdiyi üçün daha çox travma alır. Odur ki, əl və biləyi qoruyan əlcəklər taxın.
- Yeriyərkən əllərin cibdə olması müqavimətin itməsinə və başın zərbə almasına səbəb olur. Əllərinizi cibinizdən çıxarın.
- Buz sallanan binaların altından keçməyin.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# "Nar"ın dəstəyi ilə ünsiyyət məhdudiyyətli şəxslər üçün rabitə cihazları təmiri üzrə təlim kursları start götürdü

**"Nar", "Uğur akademiyası" və "Asan könüllüləri" tərəfindən birgə həyata keçirilən və ünsiyyət məhdudiyyətli vətəndaşların cəmiyyətə inteqrasiya etdirilməsini qarşısına məqsəd qoyan "Təlim məktəbi" sosial layihəsi növbəti mərhələyə keçir. Layihənin üçüncü mərhələsi çərçivəsində 25 nəfər ünsiyyət məhdudiyyətli gənc üçün rabitə cihazları təmiri üzrə təlim kursları keçiriləcəkdir.**

Gəlin birlikdə böyüyək

**Kurslar rabitə cihazları təmiri sahəsində 5 ildən çox təcrübəyə malik olan mütəxəssis tərəfindən aparılacaqdır. Təlim boyu iştirakçı gənclərə mobil telefon təmiri ilə yanaşı, əsas smartfon işləri (format, müxtəlif proqramların yazılması, izləmə-video sistemlərinin qoşulması və s.) öyrədiləcəkdir. "Təlim məktəbi" kurslarının üçüncü mərhələsinin 2 ay müddətində davam etməsi planlaşdırılmışdır.**

**Qeyd edək ki, "Həyat bizimlə daha rəngarəng" şüarı altında həyata keçirilən "Təlim məktəbi" layihəsinin əsas məqsədi ünsiyyət məhdudiyyətli şəxslərin peşə hazırlığına dəstək olmaq, onların iş bacarıqlarının artırılmasına çalışmaqdır. Üç ay davam edən layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 18-30 yaş arasındakı 75 gəncin 3 istiqamət üzrə - rabitə cihazı təmiri, kompüter təmiri və dizayn proqramları sahəsində bilik, bacarıq və səriştə qazanması məqsədilə peşəkar mütəxəssislər tərəfindən xüsusi təlimlər keçirilir.**

**Xatırladaq ki, "Nar" artıq 3 ildir ki, özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində fiziki məhdudiyyətli Azərbaycan vətəndaşlarının cəmiyyətə qazandırılması istiqamətində müxtəlif addımlar atır. Bu istiqamətdə bir çox sosial layihələr həyata keçirmiş mobil operator həmçinin 11 nəfər ünsiyyət məhdudiyyətli vətəndaşı işlə təmin edərək, Azərbaycanın biznes mühitində parlaq nümunə göstərmişdir. "Nar" özünün müvafiq konsepsiyasına uyğun olaraq, gələcəkdə də bənzər layihələrə imza atmağı və bu kimi təşəbbüslərə davamlı dəstək verməyi nəzərdə tutur.**

**"Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.**

## İsmayıllıda stomatoloqun müəmmalı ölümü: intihar, yoxsa...

**İsmayıllı rayonunda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, rayonun Cülyan kənd sakini, 1965-ci il təvəllüdlü Bəbirov Çingiz Sidqi oğlu yaşadığı evdə kimyəvi məhlul içib. Ç.Bəbirov qohumlarının köməkliyi ilə xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Ç.Bəbirov xəstəxanada dünyasını dəyişib. 52 yaşlı Çingiz Bəbirov kimyəvi məhlulu səhvən içdiyini deyib. Daha sonra vəziyyəti ağırlaşan və vəfat edən həkimin yaxınları da onun hansısa səbəbdən intihar etməsini düşünmədiklərini deyiblər.**

Bildirilir ki, Ç.Bəbirov İsmayıllıda tanınmış stomatoloqdur və mərkəzi rayon xəstəxanasında işləyirmiş. O, əslən rayonun Qalacıq kəndindəndir və bir neçə il əvvəl rayon mərkəzinə daha yaxın yerləşən Cülyan kəndində ev tikdirərək buraya köçüb.

Faktla bağlı İsmayıllı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, intiharın səbəbləri araşdırılır.

İlkin araşdırmalar zamanı müəyyən edilib ki, ali təhsilli stomatoloq olan Ç.Bəbirov 3 uşaq atasıdır. O, evində nitrat turşusu içib və kəskin zəhərlənmə nəticəsində vəfat edib.

## Şabranda 28 yaşlı oğlan özünü asdı

**Şabran rayonunda intihar faktı qeydə alınıb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, Şabran şəhər sakini, 1991-ci il təvəllüdlü Məmmədov Elvin Ağamirzə oğlu özünü asıb. Onun meyiti tibbi ekspertizadan keçirilməsi üçün Şabran Mərkəzi Rayon Xəstəxanasının morquna aparılıb.**

## Bakıda QHT sədrinə 12 il həbs

**Bakı Ağır Cinayətlər Məhkəməsində Dövlət Təhlükəsizlik Xidmətində saxlanılan "Yeni Sabah" Qeyri Hökumət Təşkilatının sədri İlqar Əliyevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmə kollegiyasının hökmü ilə İ.Əliyev 12 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, İ.Əliyev Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə), 192.1(qanunsuz sahibkarlıq), 228.4 (qanunsuz silah), 308.2(vəzifə səlahiyyətləri aşma), 310(vəzifəli şəxsin səlahiyyətləri mənimsəmə) maddələri ilə təqsirləndirilir.

İ.Əliyev 1996-cı ildə Nizami Rayon Məhkəməsinin hökmü ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. İlqar Əliyev 2001-ci ildə amnistiyaya düşərək azadlığa çıxıb.

## Bu gün hava necə olacaq?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin proqnozuna görə, fevralın 3-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, günün ikinci yarısında bəzi yerlərdə az yağıntılı olacağı gözlənilir. Havanın temperaturu Abşeron yarımadasında gecə 0-3 dərəcə şaxta, gündüz 3-6 dərəcə isti, Bakıda gecə 0-2 dərəcə şaxta, gündüz 3-5 dərəcə isti olacaq.**

Rayonlarda hava şəraitinin əsasən yağmursuz keçəcəyi, gündüz saatlarında Böyük Qafqazın bəzi şərq rayonlarında yağıntılı olacağı ehtimalı var. Gecə 3-8 dərəcə şaxta, gündüz 2-6 dərəcə isti, dağlarda gecə 10-15 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti gözlənir.

Fevralın 1-dən 2-si səhərədək ölkə ərazisində sərt hava şəraiti davam edib, yağıntılı olub, qar yağıb, bəzi yerlərdə intensiv olub.

Qar örtüyünün hündürlüyü Bakıda və Abşeron yarımadasında 29 santimetrə çatıb. Bakıda və Abşeron yarımadasında 1-3, Aran rayonlarında 1-5, dağlıq rayonlarda 10-13, Naxçıvanda 7-16 dərəcə şaxta qeydə alınıb.

## Bakıda buz faciəsi: 42 nəfər xəstəxanalıq oldu, 1 nəfər öldü

**Fevralın 1-də Bakıda ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Lent.az xəbər verir ki, Yasamal rayonunun Ə.Əhmədov küçəsində Bakı şəhər sakini, 47 yaşlı Daməd Hüseynov sürüşüb yıxılıb. O, ağır xəsarət alıb və hadisə yerində ölüb.**

Fevralın 2-də qarda yıxılaraq xəsarət alanlarla bağlı müraciətlərin sayında artım müşahidə edilib.

Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Rauf Nağıyev lent.az-a bildirib ki, son iki gün ərzində ümumilikdə 42 nəfər qarda sürüşərək xəsarət alıb. R.Nağıyev deyib ki, onlardan 38 nəfəri xəstəxanaya yerləşdirilib: " Travmalar yenə də əsasən aşağı və yuxarı ətrafların zədələnmələri, çıxıqlar, bazu sümüyünün, sağ biləyin əzilməsi ilə bağlıdır".

Baş həkim qeyd edib ki, fevralın 2-də 1 saat ərzində 4 nəfər artıq bu travma ilə Təcili Tibbi Yardıma müraciət edib.




# Elmin emosiya ilə qovuşduğu nöqtə

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bəhsimiz dua mədəniyyəti ilə bağlı olan bir bəhsdir. Dua nədir? Dua - insanı oyadan, insanın təkəbbürünü aradan aparan, insana ümid verən, insana məsuliyyət verən, insana imtahanlarda dayaq olan mübarək bir amildir. Dua etmək - insan üçün bir öhdəlik, zərurət kimidir ki, insanı Yaradana yaxınlaşdırır. Məsumlarımız (ə) tövsiyə ediblər ki, insanlar dua və münacatdan ayrı düşməsin. Onlar duanı, insanın nicatı üçün zəruri vasitələrdən hesab edirlər.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Dinin sütunu

Dininmiz insanı agah edir ki, insan dua kimi heç bir vasitə ilə Allaha yaxınlaşa bilməz. Həzrət İmam Sadiqdən (ə) nəql edirlər ki, duadan daha yaxşı, daha uğurlu, daha keyfiyyətli vasitə yoxdur ki, insanı Allaha yaxınlaşdıra bilsin. Aydın olur ki, dua - əslində Allaha yaxınlaşdıran bir mübarək vasitədir və onun mahiyyətində bu yaxınlaşdırmanın uğurluluğunu təmin edən tərkiblər vardır.

**Həzrət Peyğəmbər (s) dua barədə buyurur:** "Dua - möminin silahı, dinin sütunu, səmaların və yerin nurudur".

**Başqa yerdə Allahın Peyğəmbəri (s) belə buyurur:** "İnsanların ən acizi - dua etməkdə aciz olanıdır».

Bəli, insan çox vaxt yaxşı vasitə axtarır özünü müxtəlif təhlükələrdən qorumaq üçün. Bildirilir ki, ən gözəl vasitə, silah - duadır. Hansı duadan və necə duadan, hansı xüsusiyyətlərə, hansı keyfiyyətlərə malik duadan söhbət gedir - bu barədə bir qədər sonra. Bəli, möminin duası - onun silahıdır. Və həmin bu dua - dinin sütunudr. Duasız, münacatsız din, artıq din deyil. Çünki, duada həm emosional, həm elmi tərkib, mərifət birləşmişdir. İnsan tanıdığına tapınmalıdır. Bu tanıma üçün də elm, mərifət şərtdir. İnsanın kimə müraciət etməsi ilə bağlı mərifəti, bilgisi artdıqca, onun duasının keyfiyyəti də artır.

Digər məsələ duanın gücü ilə bağlıdır. İmam Cəfər Sadiqdən (ə) belə nəql edirlər: lDua et və demə ki, iş işdən keçibdir. Həqiqətən, Allah dərgahında elə bir məqam və dərəcə var ki, ona duadan başqa heç bir vasitə ilə çatmaq olma».

**Başqa bir əlamətdar nöqtə, duanin bəla qarşısında sipər olmasıdır. İmam Səccad (ə) buyurub:** "Dua insanı nazil olan və nazil olacaq bəladan qoruyar».

Allahın Peyğəmbəri (s) buyurub: "Bəla qapılarını dua ilə bağlayın».

## Hidayət kitabı

Dua ilə bağlı vəziyyət birmənalı deyil. Heç də hamı duanın dərin mənalılığını və əhəmiyyətini dərk etmir. Bu əlaqədə bir başqa tendensiyanı da qeyd etmək lazımdır. Bəzən çox çalışırlar ki, çox ona doğru yönəlirlər ki, Qurani-Kərimdə fiziki, kimyəvi, astronomik və s. məqamların tapılmasına önəm verilsin. Bəli, Qurani-Kərimdə bir çox İlahi nişanələr, ayətlər var, o cümlədən, bəşəriyyətin Quran nazil olandan yüzillər sonra etdiyi kəşflər barədə məlumatlar var. Amma diqqəti bunlarda təmərküzləşdirmək - dolayısı ilə müəyyən dərəcədə dinin insan yetişdirmək missiyasını unutdurmaq hədəfinə qulluq edir. Bilmək lazımdır ki, Quran - hidayət kitabıdır. Quran - insanı oyadan kitabdır. Quran - insanın oyanması üçün, ayılması üçün elmi, fəlsəfi, əqli və başqa-başqa minlərlə cəhətlərə işarə edir. Bunlar onun üçündür ki, insan oyansın, ayılsın. Quran insanın hidayəti üçün gəlib. Quran insanı yetişdirmək üçün gəlib və ən gözəl vasitədə Quran bizə öyrədir ki, dua edin, duadan yapışın. "Bəndələrim səndən Mənim barəmdə soruşduqda (söylə): Mən onlara yaxınam və Məni çağıran kəsin duasına cavab verərəm. Gərək onlar da Mənim çağırışıma cavab versinlər və doğru yolu tapmaq üçün Mənə iman gətirsinlər". ("Bəqərə" surəsi, ayə186).

Dinimiz deyir ki, duadan yapışın və duasız heç nəyə gedib çıxmaq mümkün deyil. Mümkündür insan gözəl alim ola, mümkündür insan gözəl mühəndis ola, gözəl riyaziyyatçı, fizik, bioloq, kimyaçı ola. Amma insanın Allahla rabitəsi olmasa, onun kamil insan olması sual altında qalır. Bu, çox ciddi məsələdir.

Allah bizi duadan ayrı salmasın. Yuxarıda gətirdiyimiz mübarək hədisdən məlum olur ki, dua - yerin-göyün nurudur. Yəni həm yerin, həm də göylərin yaraşığı və işığı - duadır. Həzrət Əlidən (ə) soruşdular ki, Allah dərgahında hansı kəlam, hansı söz daha üstündür. İmam Əli (ə) buyurdu ki, Allahı çox yada salmaq.

Bəli, Allahı yada salmağın içində çox şey var. Ən başlıcası da - əbədiyə, daimiyə, mütləqə, ən aliyə, ən kamala tapınmaq. Ən aliyə tapınan - ali dəyərlərlə yaşayar, alı əxlaqların daşıyıcısı olar.

**Başqa yerdə İmam Əli (ə) buyurub:** "Dua - rəhmət qapısının açarı və qaranlıqda (işıq saçan) çıraqdır».

**Duanın əhəmiyyəti çox böyükdür. İmam Rzadan (ə) nəql edirlər ki, buyurub:** "Peyğəmbərlərin silahından yapışın!». Soruşdular: "Peyğəmbərlərin silahı nədir?» Buyurdu: "Dua».

Yaxud, İmam Əlidən (ə) belə nəql edirlər: "Kim pak və müqəddəs olan Allahın (rəhmət) qapısını döysə, o qapı onun üzünə açılar».

Gördüyümüz kimi, dua - rəhmətə səbəb olan, doğru yol göstərən vasitə olmaqla yanaşı, nəfsani xislətlərin qarşısını alan bir işlək silahdır.

## Cavabda yəqinin olsun

Bəs duanın qəbul olunmasına təsir edən amillər hansıdır? Burada həm mənfi, həm müsbət təsiredicilər var. Öncə duanın qəbul olunmasına yardım edən amillərə nəzər yetirək.

Burada birinci məsələ kimi ixlası göstərmək lazımdır. Qurani-Kərimdə buyurulur ki, çağırın Allahı bir halətdə ki, dinə münasibətdə ixlaslı olasınız. Hətta kafirlərin xoşuna gəlməsə də belə. Quran bizə deyir ki, siz Allahı çağıran zaman, Allahla ünsiyyət saxladığınız zaman dua etdiyiniz zaman dininizdə müxlis olun, xalis olun. Kiminsə xoşuna gəlməyə də bilər. İnsan nə etsə, nə addım atsa, mütləq elə adam tapılacaq ki, bu addım onun xoşuna gəlməyəcək. Çox incə bir məsələdir. Axı qərar deyil insanın bu dünyada bütün işləri hamının xoşuna gəlsin. İnsanın zatən belə bir öhdəliyi də yoxdur. Əsas odur ki, Yaradanın xoşuna gəlsin.

**Xanım Fatimeyi-Zəhra (ə) buyurmuşdur:** "Kim özünün saf və pak ibadətini Allah dərgahına qaldırsa, Allah Təala o bəndənin xeyrinə olan ən yaxşı işi ona nazil edər».

İnsan Allahla xalis olanda, İlahi razılığı əldə edəcək. Və hətta ondan, onun mövqeyindən narazı qalanlar da qəlblərinin dərinliyində deyəcək ki, əhsən bu insana, əqidəsində sabitqədəmdir. Heç kəs sevmir əqidəsindən dönük olanları. Vicdanı ilə "kompromissə" gedənləri. Əqidələrindən dönməkdə "konstruktiv" olanları. Hamı anlayır ki, əqidəsinə xəyanət edən, sabah hər məsələdə xəyanət edə bilər. O ki, qalsın İlahi dəyərlərə nisbətdə xəyanətkar olanlara. Vacib hesab etdiyi məsələlərdə, dininin vacibatlarında səhlənkarlıq edənlərə. Belələrinin vəziyyəti çox acınacaqlıdır. Həm İlahi qınağın obyektidir, həm də insanların məzəmmətinin.

Digər məsələ qəlbin iqbalı ilə bağlıdır. İnsanın qəlbində dua haləti olmalıdır. Elə olmalı deyil ki, dil deyir, amma qəlbdə dua vəziyyəti yoxdur. Fikri-zikri başqa yerdə olsa, duanı qəbul etməsi, qəlbində yerləşdirməsi müşkülə çevrilər. Yəni dilimizlə dediyimizi, Allahdan istədiyimizi bir robot kimi etməməliyik. Mexaniki halda etməməliyik. Gərək dua adiləşməsin insan üçün təntənəsini itirməsin. Qəlbimizin gərək hazırlığı olsun, bilək ki, kiminlə danışırıq.

Həzrət Peyğəmbərdən (s) buyurulur ki, Allahı bir halətdə çağırın ki, icabətinə yəqininiz olsun. Və buyurulur ki, biliniz, qafil və xəbərsiz qəlbdən dua qəbul edilməz. Yəni Allahı çağıran zaman, dua edən zaman bir halətdə olun ki, yəqininiz olsun ki, Allah Təalanın sizin bu duanızı eşitməsinə və cavablandıracağına yəqininiz olsun.

## Qəlbin kövrəlməsi - rəhmətdir

Qəlbin riqqəti, hazırlığı duada böyük rol oynayır. Allahın Peyğəmbəri (s) buyurmuşdur: "Qəlbin kövrəldiyi vaxtı dua etməyi qənimət bil. Çünki qəlbin kövrəlməsi (riqqəti) - rəhmətdir».

**İmam Cəfər Sadiqdən (ə) belə buyuruş var:** "Allah Təala daş qəlbdən gələn duanı qəbul etməz».

Digər məsələ, dua edən zaman duanın qəbulluğuna əminliklə bağlıdır. Dua edən zaman insanın hüsnü-zənni (gözəl zənn etməsi) və yəqini olmalıdır duasının qəbul olunması ilə, müstəcəb olması ilə bağlı. İnsanın yəqini olmalıdır duasının Allah Təala tərəfindən cavablandırılması ilə bağlı. Və insan qətiyyən elə baxmamalıdır məsələyə ki, məndən artıq düzələsi adam olmaz. Adam Allaha ümidli olmalıdır və yəqini olmalıdır ki, əgər Allah insana deyibsə ki, "çağır Məni, sənin dualarını eşidərəm və səni cavablandıraram" - insanın buna yəqini olmalıdır. Məsumlarımız (ə) buyururlar ki, elə dua et ki, sanki sənin hacətin artıq evinin kandarına qoyulmuşdur.

Yenə qayıdaq iqbal məsələsinə. İmam Sadiqdən (ə) buyrulur ki, dua etdiyin zaman qəlbində iqbal halını yarat. Dua edəndə qəlb, hüzuri-qəlb vəziyyətində olmalıdır, qəlb hazır olmalıdır, qəlb oyaq olmalıdır, qəlb bilməlidir kiminlə danışırsan və nə istəyirsən. İkincisi də yəqinlik, əminlik olmalıdır ki, Rəbbim eşidir və elə hər dərdimi həll edə bilən Odur və Ondan başqası yoxdur. İnşəallah da, edəcək. İmam Sadiqdən (ə) buyrulur ki, o vaxt ki, dua edirsən, qəlbinin iqbalına və diqqətinin Rəbbinə tərəf yönəlməsiə fikir ver. Duanı bu halətdə et. Öz hacətini qapının ağzında bil. Çox maraqlı məsələdir. Yəni, dua etdiyin vaxt qəlbin hazır olsun ki, qəlblə, ürəklə dua edəsən. Diqqətin Rəbbində olsun və duanı o cür edəsən ki, elə bil hacətin qapının ağzındadır, uzaqda deyil. Sənin istəməyindən asılıdır ki, o qapı açıla və sən oradan hacətini götürəsən.

## Duanın qəbul olunmasına kömək olan amillər

Dua etməklə bağlı digər mübarək tövsiyələr də var. "Bismillah" demək - duanın qəbulluğunda böyük rol oynayır. Allahın Peyğəmbəri (s) buyurub: ""Bismilləhir-Rahmənir-Rahim»lə başlayan dua geri qaytarılmaz»".

İmam Əli (ə) buyurub: "Hər bir çətinlik və müşkül zamanı "Lə həvlə və lə qüvvətə illə billəhil-aliyyil-azim"(lUca və böyük Allahdan başqa heç bir güc və qüdrət yoxdur») de. (Belə deyəndə) həmin çətinlik aradan qalxar».

İmam Rzadan (ə) nəql edirlər: "Atamı yuxuda gördüm və o, buyurdu: "Oğul! Çətinlik içərisində olan zaman "ya Rauf, ya Rəhim» ibarəsini çox de. Yuxuda gördüyün aşkarda gördüyün kimidir (yəni bu dediklərimi yuxu sanma, aşkar kimi qəbul et)».

İbadətin çox edilməsindən insan çəkinməməlidir. Allah Təala, verməklə, əta etməklə kasıblamaz. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allahdan istəyin və çox istəyin. Çünki Onun üçün heç nə çox və böyük deyil».

**Dinimiz irili-xırdalı bütün məsələlərdə bəndənin Yaradanla rabitədə olmasını təqdir edir. İmam Muhəmməd Baqir (ə) buyurur:** "Öz kiçik hacətlərinizi xırda və az əhəmiyyətli hesab etməyin. Çünki Allahın ən çox sevdiyi möminlər - daha çox dua edən kəslərdir».

**Digər əlamətdar bir məsələ, dua edə bilən qəlbin hazırlığının, duanın qəbulluğu ilə vücudi əlaqədə olmasıdır. İmam Həsən (ə) buyurmuşdur:** "Allah Təala kimin üzünə dua və istək qapısını açıbsa, qəbul qapısı da onun üzünə açılmışdır».

## Dua qəbuluna nələr mane olur?

Duanın qəbul olunmasına mane olan amillərə də qısaca toxunaq. Burada ilk olaraq, insanlara edilən zülm göstərilməlidir. Allah, zalım kəsin duasını qəbul etməz. İmam Əlidən (ə) nəql edirlər: "Allah Təala Məryəm oğlu İsaya vəhy etdi: "Bəni-İsrailin zadəganlarına de ki.... Mən sizin heç birinizin və boynunda Mənim məxluqlarımın haqqı olan kəslərdən heç birinin duasını qəbul etmərəm».

**İmam Cəfər Sadiqdən (ə) belə nəql edirlər:** "Allah Təala buyurmuşdur: "And olsun izzəti-cəlalıma, əgər məzlum özünə olan zülm kimi bir zülmü başqasına qarşı edibsə, onun zalım barəsində etdiyi dua və lənəti qəbul etmərəm».

Digər nöqtə, insanın özünün nəyisə dəyişmək istəməməsi, hərəkət etməməsi halında dua etməsi ilə bağlıdır. İmam Sadiq (ə) buyurub: "Dörd nəfərin duası qəbul olunmaz: Evində oturub ley Allahım, mənə ruzi yetir!» deyən kişinin. Allah Təala ona buyurar: "Məgər sənə qalxıb ruzi dalınca getməyi əmr etməmişəmmi?!». Öz arvadına lənət edən kişinin. Allah Təala ona buyurar: "Məgər onun işini sənə tapşırmamışammı?» Var-dövlətini hədərə verən kişinin. O deyər: "Ey Allahım! Mənə ruzi ver». Allah buyurar: "Məgər sənə qənaətcil olmağı əmr etmədimmi?!» Öz malını sənəd və şahid olmadan başqasına borc verən şəxsin. Allah Təala ona deyər: "Məgər sənə göstəriş vermədimmi ki, (borc verən zaman) sənəd və şahid tutasan?!»

Haram yeməklə, haqq basmaqla, haram yollarla əldə edilən imkanlılıq - duanın qəbul olunmasını əngəlləyər. Allahın Peyğəmbəri (s) buyurub: "Həqiqətən, bəndə yeməyi haram olduğu halda əllərini dua üçün Allah dərgahını uzadır. Məgər belə halda onun duası qəbul olunarmı?!»

**Rəsuli-Əkrəm (s) başqa yerdə buyurub:** "Qazancını halal et ki, duan qəbul olunsun. Çünki insan bir (haram) tikə ağzına qoyarsa, qırx gün ibadəti qəbul olunmaz».

**Həzrət İmam Sadiq (ə) buyurub:** "Sizlərdən hər kim dualarının qəbul olunmasını istəyirsə, öz qazancını təmiz etsin və insanların haqqını ödəsin. Qarnında haram mal və boynunda bir kəsin haqqı olan insanın duası Allah dərgahına qalxmır».

Bəzən duanın qəbul olunması insanın ziyanına ola bilər. Bəzən, insan xeyir axtardığı yerdə zərər tapa bilər. Buna görə, Mütəal Allah insanın xeyrini nəzərdə tutaraq, onun duasını qəbul etmir. İmam Əlidən (ə) belə nəql edirlər: "Pak və müqəddəs Allahın kərəmi Onun hikmətinə zidd deyil. Buna görə hər dua qəbul olunmur».

**Allahım! Bizləri dua əhlindən və duaları qəbul olunanlardan qərar ver! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 24 (6638) 3 fevral 2017*




## Facebook insanın kredit borcunu artırır

**Kolumbiya Biznes Məktəbi və Pitsburq Universitetinin ortaq araşdırmasına görə, sosial şəbəkədən istifadənin artımı istifadəçilərin bədən kütlə indeksini pozur və kredit kartı borclarını artırır. İstehlakçı davranışları üzrə mütəxəssisləşən "Consumer Research" jurnalının son buraxılışında yer alan araşdırmada göstərilib ki, facebookdakı yoldaşlarını tez-tez təqib edən istifadəçilərin ani olaraq özünə inamı artır. Bu artım istifadəçinin özünə nəzarətini azaldır və sosial şəbəkədə daha çox vaxt keçirdiyi üçün bədən kütlə indeksi və kredit kartı borcları artır.**

Bədən kütlə indeksinin pozulmasına səbəb isə sosial şəbəkəyə aludə olan şəxsin qidalanmasına lazımi qədər önəm verməməsidir. Amma sosial şəbəkədən asılılıq ciddi xəstəlik sayılır və insanı bu asılılıqdan qurtarmaq siqaret, narkotik kimi digər zərərli vərdişlərdən xilas etmək qədər çətindir. Facebook eyni zamanda insanların şəxsi münasibətlərini də ciddi şəkildə zədələyir. Bəzi hallarda illərlə davam edən dostluqlar sosial şəbəkə daxilində baş verən proseslər ucbatından soyuqlaşır, əlaqələrin kəsilməsinə, insanların bir-biriləri ilə kobud davranışına səbəb olur.

## Duş alırsansa, stressin azalacaq

**Türkiyəli psixoloq Gülden Güvenç stressdən uzaq olmaq üçün duş almağın faydalarından danışıb. Onun sözlərinə görə, imtahan verənlər də stress və depressiyadan uzaqlaşmaq üçün duş almağı seçim edə bilər. Bu sadə prosedur imtahan həyəcanını azaltmağa kömək edir.**



Duş alarkən diqqət yetirilməsi lazım olan su istiliyi və duşda keçirilən müddətdir. Çox isti su dəridə tarazlığı pozaraq, bədəndəki təbii yağın yox olmasına səbəb olur. Uzun müddət suyun altında qalmaq isə dəri sağlamlığına mənfi təsir göstərə bilər. Bu baxımdan, çox duşda olmamaq və duşdan sonra istəyə uyğun bitki mənşəli nəmləndiricilərdən istifadə etmək lazımdır. Dəri sağlamlığı üçün çirkli və ya küləkli yerlərdə olmamaq məsləhətdir. Onu da qeyd etmək lazımdır ki, günəş şüaları xüsusilə bədəndə saxlanılan D vitamininin sintezləşməsində və sümüklərin inkişafında əhəmiyyətli rol oynayır.

## Ürəyi 3 dəqiqəlik dayandı, geri qayıdandan sonra olanları danışdı

**Elm adamları ölümdən sonra da şüurun davam etdiyini kəşf ediblər. Bu qənaətə İngiltərə, Amerika və Avstraliya həkimləri 15 xəstəxanada apardıqları araşdırmadan sonra gəliblər. İnfarkt keçirən, kliniki olaraq ölən və yenidən geri qayıdan 2 min insan üzərində edilən tədqiqatdan sonra məlum olub ki, həmin insanların 40 %-nin beyni dayansa belə, şüuru itmir. İnfarkt keçirən 57 yaşlı bir ingilisin ürəyi 3 dəqiqəlik dayansa da, "o dünyadan" geri qayıtdıqdan sonra ətrafındakı həkimlərə nə gördüyünü danışmağa başlayıb. Bəzi xəstələr kinolarda təsəvvür edilən kimi, ağ parlaq işıq gördüyünü, bəziləri isə bir əlin onların boğazından bərk yapışaraq boğmağa çalışdığını söyləyiblər.**

Bir qrup xəstələr isə qorxu, təəccüb və rahatlıq dolu bir hiss yaşadığını deyib. Qeyd edək ki, edilən araşdırmalardan sonra Amerikanın tanınmış alimlərindən Sam Parnia insan öldükdən sonra şüurunun itmədiyini söyləyib.






## WhatsApp harada olduğunuzu dostlarınıza deyə bilər

**WhatsApp bundan sonra dostlarınıza harada olduğunuzu deyəcək. Bu özəllik beta testi ilə ortaya çıxıb. Belə ki, WhatsApp istifadəçilərinin konumları artıq mesajlaşdığı insanlar tərəfindən də görüləcək. Amma burda bir xüsusi detal var ki, sözügedən özəllik qrup söhbətlərini hədəf alır. WhatsAppın canlı konum təqibi özəlliyini isə arzulayanlar həyata keçirə bilər. Belə ki, harda olduğunun bilinməsini istəməyənlər bu funksiyanı bağlı tuta bilər. WhatsAppın daha bir özəlliyi isə yanlış insanlara göndərdikləri mesajları ləğv etməsi ilə bağlı olacaq. Belə ki, göndərilən mesajları silməyə imkan verəcək bu özəllik üçün istifadəçilərin ilk mərhələdə göndərdikləri mesajlara tıklayıb, daha sonra menyu vasitəsilə "silmə", "ləğv etmə" düyməsinə basması kifayətdir.**




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**BUĞA** - Havaların şıltaqlığını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə qidanıza da yaxşıca fikir verməlisiniz.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**QIZ** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə sizdə səhhətlə bağlı problem yarada bilər. Bu səbəbdən də qayğınıza qalmağa çalışın. Ayaq nahiyənizə xüsusi diqqət ayırın. Qalan sahələrdə normallıq olacaq.

**ƏQRƏB** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**OXATAN** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**OĞLAQ** - Saat 14-ə qədər neytarllıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**BALIQLAR** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu məktəbdə hər tənəffüs zamanı rəqs edirlər



**Türkiyənin Mardin şəhərindəki Artüklü bölgəsindəki bir orta məktəbdə ilginc proseslər baş verir. Şagirdlər hər tənəffüs 5 dildə mahnıların müşayiəti ilə müəllimlərlə rəqs edirlər. Buna səbəb isə sözügedən bölgədə şagirdlər üçün hər hansı əyləncənin olmamasıdır. Kürd, ərəb, ispan, türk və ingilis dilində mahnılar çaldıraraq rəqs edən şagirdlər zaman-zaman klassik musiqi sədaları altında da dərsə girirlər. Müdiriyyət isə deyir ki, bu, şagirdlərin məktəbə bağlılığını, dərslərə motivasiyasını artırmaq və onları pis vərdişlərdən uzaqlaşdırmaq məqsədi daşıyır. Şagird və müəllimlərlə yanaşı, zaman-zaman valideynlər də rəqslərə qoşulurlar.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100